**ZAHİD SARITORPAQ**

# Tək İşığın haləsi

***ŞEİRLƏR***

BAKI – 2010

**can çözümləri**

…havada boş öpücüklər havada quş tükü
yalqız
ağrıları götürən su ölümdən öncəki dilək
gözəl qiyafətlər cadulanmış vücudlarda
soluq-soluq
dikəlməz yaş kəfənlərdən yulğunların qoxusu
artıq...

## qürbət qaysaqları

adının böyründə pas tutmuş suçların üstüylə
qəribin bir axsaq günü də yeriyib keçdi –
yeridi yenə bir ayağı yalın
bir ayağındasa əsgər çəkməsinə oxşayan ürək

illərdi pəncərəsindəki şüşənin çatında
doğranır rüzgarların səs telləri
boğazları kəsilmiş notların qanı çilənir
daşa-divara oxuduqlarına

hərdən
arxasını işığına çevirmiş ölü günlərin kəfənində
gül rəsmləri cızmaq keçir içindən
yazmaq da keçir: “ey gül, göstər kərəmini,
ya məni də öldür buralarda
ya bahar haqda röyalara bir son ver...”

burda birçəyi ağacların biləyinə dolaşmış
əli ülgüclü qış küləklərindən
qəriblərin içinə doğranır şaxtaların çəhrayısı

gözlərin dibinə sərilmiş xalçalara tökülür qanı
polis dəyənəyindən çürüyən böyrəklərin

günəşin sevdası ən çox
səkiləri süpürən yabançıların
sızlayan əllərinin çatlarında kirlənir

bir muzdlunun heybəsindən qalxan qara çörəyin qoxusu
gecələrin başını kəsəndə
bayram eləyir
sözlərinin qırağında dəvətikanları bitmiş cənublular

qürbət zinakar bir qadına dönür asanca
çılpaq göbəyinin oymağında şərab içirtməklə
öldürəndə bərəkətlərin halallığını
kürən kipriyini qırpmaz da baxar
beləcə cavan qəriblərin qarışıq yuxularının damı damanda
dənəvər leysanlar boğulanda qarışqa yuvalarında
halallıq murdar bir nəsnəyə dönüb çıxar suyun üzünə

“ey gül, göstər kərəmini...”
hər zaman uzaq anıların
mumiyalanmış meyitlərindən əsən
pətək qoxusu doldurmur gedər-gəlməzini üzülmüşlərin
odur ki sabahkı günün şəkərinə çırpılan arılar
bir ahu-zarda bağlarlar şanlarını çox vaxt

bir ayağı yalın

bir ayağındasa əsgər çəkməsinə oxşayan ürək
adının böyründə pas tutmuş suçların üstüylə
gün keçirkən axsaya-axsaya
qərib elə bilər yaşamına
                              yalqızlığına
                                      ölümünə
dünyada işıqlı olan hər şeyin
könüllü sürgünü başlayır
sevinər

## bir yaddaş çapığı

quş tutmaq sevdasıyla
çardağa dırmaşmış uşağın yalın ürəyinə
bir göyərçin ölüsünün qurumuş sükutu sancıldı qəfil
bir-bir nərdivandan geriyə yıxıldı
bir andaca gələcəyin
qanadları möhürlənmiş bayqın günləri

evə qayıdanda
gözləri yandıra bilmədi güzgüdə sönənləri
yuxusunun üzünə çəkilmiş hörümçək torunu
bıçaqladıqca ağlayırdı qupquru bir kölgə
qırx dərəcə qızdırmanın tavanında
göyləri boşaltmaq üçün
öldürürdülər dünyanın bütün quşlarını
sındırırdılar bütün uşaqlarını birnəfəsə
ağıtlar içində qocalmışdı anasının ağ çarşablı səsi

hələ də bu adamın
içinin daş dövrü sevgilərinə açılanda gözləri
ödünün suyu damır sabahlarına

yalın ayaqlarına baxır darıxanda
çünki yalın ayaqlarına baxanda
uşaqlığına daha asan qayıdır adam
qondurur onlara qanadı qıfıllı xatirələri –
çünki ömrün nərdivanlarında
gah həmən quş ölüsünün qurumuş sükutuna çırpır
gah uşaqlığın çardaqlı günlərinə toxuyur özünü onlar

ahından sədəqə də verir indi
yaddaşının qapısında oturmuş dilənçi əzablara

amma o günü yaşayanda
tavandakı işığın get-gedə tükləşən üzünə sıçramır daha
yırtılmış ürəyindəkilər bir-bir

## uşaqlar

hər dəfə
qılıncını köynəyimizə siləndə məğlubiyyət
qarğalar leşini didir sabahların

hər dəfə
küfrün ziyafətindən ayrılmağa
vaxt tapmayanda sərxoş böyüklər
hökmün yırtıq kisəsindən
ölü uşaqlar tökülür cəhənnəminə yaşamın
və onlar xarabalığında rəhmimizin
intihar etmiş günlərin ölüsüylə oynayırlar
heç nə olmayıbmış kimi

## mahnı

qonşu uşağının qorxulu yuxusunda öldüyüm gün
elə bilirdim gecəyə dağılır pozulmuş surətim aynadan
demə o an o uşağın yuxusu uzunu
gecənin dibində işıqlarını söndürmüş avtomobildə
sürətlə çırpılırammış bir mahnının divarına
hələ ölürkən o mahnının içindən düşmüş
işıqlı bir gülü də öpürəmmiş yaralarımla

axirətin mənə yazılmış işıqlarının doğmalığına
içimin qəndillərimi bir şəhadət verirdi o gecə
ya o qorxmuş çocuğun yuxusumu

görünür sonumun haraya uçuqlayacağı oxunurmuş
o çöküb-çökdürdüyüm mahnıda

## bir anın payız silueti

yarpaqlar qar düşənə qalmadı yenə
«sən nə düşünürsən?..» deyə
qosqoca dünyaya toxunur payız

bilgimiz nə qədərsə bir o qədər çaşqınıq
olümün şəcərəsini budaq-budaq oxumağa
üryanlara çırpılır könül birəm qar gəldiyində
amma həmişə elə bilirik yaza yarpaqlara
tumurcuqları çiçəyə boylu budaqlara köklüdür o
əslində bildiyimiz heç nədi görünür

hərədə bir cürdü ürəyin ölçü vahidi:

birində sevgi birində ayrılıq
birində sevinc birində üzüntüylə ölçülür yaşam

hərdən  elə fikirləşirsən
yaşı  min illərlə ölçülən bir küp qəbrin
miniatür əksidir daşıdığın ürək –
nə qədər mataha minib
matahdan düşsə də Can Türbəsində
içində ölənlərin
öldürülənlərin məsum kəmikləri sızlasa da
artıq öz işini görmüş və susmuş zamansızlıqda

qiyamda duaların səcdədəkindən daha uzun sürməsi
aşiqə Rəbbin lütfüdü sözsüz
birəm qar gəldiyində ruhun qiyamı
yarpaq tökümündən sonrakı ağaclara
ayaqda durmağın önəmini bildirir

bizdən ayrılan hər anın payız siluetinin
üzü necə var köçürülürsə dəftərimizə
səhifəmizin birini ötürüb o birini varaqlamaz
O alayarımçıq oxumaz  bizi  bizdən fərqli

«sən nə düşünürsən?..» deyə
toxunur bizə qosqoca dünya
yarpaqlar qar düşənə qalmadı yenə

## kamanda ox yerinə bir lələk

kamanda ox yerinə bir lələk
nişangahda can yerinə bir gül
fərmandasa  ölüm yerinə bir eşqdi guya

belə olmur axı
bu oxçu sadəcə sərxoşdu
qurbanına nağıl danışır
qətl öncəsi

## bir ovuc dənin hesabı

üstümə düşmüş əzrayıl kölgəsi qorxutdumu
çırpıldı qübbəyə sabahın göyərçinləri
artıq quşlara deyil
yaşanmamış bir günün tarlasına səpiləsi
bir ovuc dənin hesabı qaldı məndə

## bir uçuşun sonunda arzulanan türkü

bir uçuşun  sonunda bir qu yorğunluğuyla süzərək
keçərək sınırlarını vaxtın sevginin yalqız
enərək qoynuna pünhan göycə suların
kimsəni çağırmadan göyçək bir ölümlə ölərək
səssiz sözsüz oxunan son türkünün bəstəsinə
Can Evinin soyuq divarlarında
ilk misranın rəsmini  beləcə cızmaq olar:
- yorğun qanadına qurban
suları tərpədərsənmi

ana qarğışı tutmaz  körpəsini
çünki arada süd var deyirlər
sevgidən ayrılıqdan həsrətdən doğulanlar da
qarğışa gəlməz deyirlər heç vaxt –
arada ölüm durur çünki
ölümün ana südü mislində halallığı durur
bir də Can Evinin soyuq divarlarında
səssiz sözsüz oxunan
son türküyə cızılmış sonuncu misranın rəsmi durur:
- çoxmu gözəldi oralar
bir də gəlsən gedərsənmi

## oxur çiskinlərdə kor alabaxta

oxur çiskinlərdə kor alabaxta
görünür
yuxarılardan keçən köçmən quşların
qanad səslərini duymuş zavallı

bir gün  hökmən
kor dumana girmiş uçaq kimi
qədərin qaya-qapçağına çırpılır
yetir sonu qara sevdaların
aşiqlər bu uçaqların qara qutuları kimi düşür
həyatın künc-bucağına
amma çox qəribədi
görən
axtaran olurmu onları bir daha

itkin qara qutular üstündə
yalqızlığın yanıq qoxulu boşluqları
içini çəkir əbədiyyət kimi

oxur çiskinlərdə kor alabaxta

amma derlər  o qara qutulardan birini
təsadüfən tapmışlar  bu yaxınlarda
içində yazı lenti bomboşmuş

heç nə yoxmuş  bircə kəlmə « ah! »dan  başqa
onun da yarısı yanıqmış derlər
oxur

oxur çiskinlərdə kor alabaxta

ömür bir göydələndisə
üst qatında yoxdusa mənzilin
dənizi görmək istəyin
ürəyində qalırsa hər dəfə
çatmırsa heç yana əlin
unut bu hərçi-betərinə lənətlər olmuş yaşamı
oxur

dodağında
unudulmaz bir yağmurun duzu,
içində
suları gördükdə oxuduğun şükran dualarının
şəkəri dadında bir nisgil
daha  nəyi gözləyirsən deyir
aç, aç əllərini dilə ucalardan
dəniz özü gələcək ayaqlarına
oxur

oxur çiskinlərdə kor alabaxta

səsində
yalqızlığın yanıq qoxulu boşluqları
içini çəkir əbədiyyət kimi

## qapanmayan çevrələrin suçlusu

qafil
yuxusuna əyilmiş bir qızılgülün
şehli ləçəklərindən öpərək ayıldı
aşiq oldu sonda

aşiq
«heç vaxt sönməz!» iddiasıyla
şamlar yandırdı nəfəslikdən əsən rüzgarlara
arif oldu sonda

arif
qaranlığın daş bağrını
göz yaşları tökmədən belə əritdi
şair oldu sonda

şair
bütün bunları yaşasa da
yenə şeirə tövbə deyə bilmədi

buna gücü çatmadı sadəcə
şair olaraq qaldı
və bir gün də öldü
çevrəni qapamadan

## gerçəyin qış naxışları

günün bir adı var: soyuq
rəsmini çəkmək istəsən buz bağlayar fırçan
canın bir dərdi var: eşq
hər iki anlamda çəkə bilməzsən axıracan

gözünü açanacan qapının ağzındakı o balaca
o dəngil-düngül ağacları da  böyümüş gördün  artıq
özünü asmaq istəyən adama tab gətirər düşündün budaqları
həm də düşündün: dönməzliyin bir yolu var – dözmək

soyuq rüzgarların və kimsəsizliyin
uca budaqlarda dağıtdığı bir quş yuvasına toxunur ölü günəş
toxunur və lələkləri tökülür üşüyən yarımçıq şeirin üstünə
sözün bir dərdi var: işıq
işığın bir dərdi var: sönməmək
hər iki anlamda belədi könüldə cızılanlar
hər iki aləmdə belədi yəqin
düşündün: ölməmək

## üzündə bir qiyamət işarəti olmasa da

*Müşfiqi düşünürkən*

üzündə bir qiyamət işarəti olmasa da
rəsminə rast gəlincə ixtiyarsız içini çəkir adam
səndən yazanda sözün iliyi tökülür vərəqlərə
sən daha şeirlik deyilsən görünür
üzü qeybə yelkənlər açan dualıqsan artıq

sən yaşda ölən
göyərçin sevdalı şairlərin
üzündə qiyamət işarəti olmasına kim inanar – heç kim
qopmadı o nə otuz yeddidə nə ondan sonra
amma o illərin dənizə atılmış qətl daşlarında
haqqa sarı əlçim-əlçim yosunlar bitir hələ də

zaman bir kraldı həmişə
əlində aslan başlı qızıl əsa
gah yasda görünür – qan qoxusundan güllərin saraldığı yerdə
gah toyda bulunur – ölü ruhlar oynaşan saraylarda
sonra da qarışdırır hər şeyi bir tiyanda

üstünə iblislər ögümüş iyrənc yalanların
içindən boy verir məsumlar bir-bir: alınlarında ölüm hökmü

hələ də çılın-çılpaq
“mən azadam, insanam çünki!” deyənlərin
dəngəsi düzəni pozulmuş başlarının  içində
palçıqlı ayaqlarını sürükləyir  bu köhnə fəlsəfə
keçdiyi yolların acısını soyudur elə bil bununla
hürr olmaq sarıdan çəkilən ahla ləçəklərini qurudur
ruhun uşaqlığında ölmüş dölün nakam gülləmələri

gəlinlik güzgüsünə qəfil düşən çat xofunu
başından çıxara bilməyən cahil bir qadın
inamında necə safsa
eləcə azadlığın ölçülərini gəzən adam
qanadı zər baftalı kəpənəklərə qədər
yönəldər öz nisbətlərini hər gün
üzündə bir qiyamət işarəti olmasa da

adicə xırman sərçələrini xırmana
çöl gürzələrini çölə nə bağladığını düşünəndə o
“Tanrı heç bir  bəndəsinin  sağ gözünü sol gözünə
möhtac eləməsin!” deyər ilk öncə
sonra azadlıq adına əyilər haqqa
fərq etməz artıq o
oraq-çəkic olsun ay-ulduz olsun

“mənim bu dəryada bir sandalım var...” demişdin
İndi oralara
qağayı balalarına qoşulub uçur salavatlarımız
amma narginlərdə nə daşlar çat verir yəqin
nə bir qum dənəsi əriyir dualarımızdan
sahil bağında quşları oxuyan görmədim heç
nədənini də bilmirəm  bu günə kimi
bir qiyamət işarəti var oxularında bəlkə
ona görə qıfıllanıb səsləri çox güman
görünür sulara atılmış açarını
balıqlar udmuş bu sirrin

hələ də şairlər öləndə öldürüləndə
gerçəklərin  iliyi tökülür qeybin boşluqlarına
özləri də bilmədən kabusa dönür fanidə sağ qalanlar
“niyə belə oldu?” deyə fikirləşirlər
başları altında gül yastıq
üzlərində bir qiyamət işarəti olmasa da

## dərkolunmazlıq

qadını gülü eşqi
şeirlərdən aparan fırtınalardan

hərdən bəyaz bir əlcək atılsa da yaddaşlara
tərpənmir ölü vücudu dünyanın

arısı gəlib çıxmır tozlanmaq istəyən sirr budağının
nə söhbəti olmuşsa qadınla gülün
biryolluq unudulmuş artıq

çarpazı  taxta vurulub qapılarına umudların
çarpazı taxtalanıb pəncərələri gözləmlərin
qapı pəncərə yerinə
divarları döyür çarəsiz əllər
amma səs çıxmır can adlı qəsrdəki sirdən

bəs nə idi
nələri qoymalıydı mizanda yerinə
o ölünü tabutdan qaldıran qadınla gülün söhbəti

sonucda gül  niyə soldu viranəliklərində şeirimizin
niyə öldü qadın sözün qapısı ağzında
ürəyim qurşun yesəydi
dərddən dadlı olardı deyənlərə də
dərk olunmadan tərk olundu eşq
niyə

## uçağımız haraya uçursa uçsun

uçağımız haraya uçursa uçsun
illüminatordan ömrün bir üzü görünür ancaq

karvanımız haraya gedirsə getsin
başımız üstündə məsum bir göy var
çərçivəsizliyində şəklimizi  görmək istədiyimiz  bir göy
amma orada surətimiz
can atdığımız işıqda görünə də bilər görünməyə də

könlümüz haraya havalanırsa havalansın
hər gün iynə-qıyıq olub ürəyimizdən keçən
amma olumsuzluğunu bildiyimiz çox şeylər var
və nəfəsimizdəki gül qoxusunu
boş-boş kəlmələrə hopdura-hopdura
onlar haqda zalımcasına
nə qədər danışırıqsa da  danışaq
istəklərimiz göyərə də bilər göyərməyə də

kim nə deyirsə desin
zor sevməz bu can – məkanı  halalda durur çünki
zor sevməz bu könül – çünki altında pırıldadığı
üstünə qonub oxuduğu tağ-tavanı halalda durur
di gəl yenə haqqı batildən
ayıra da bilər ayırmaya da

## ölümümdə başqa bir yaşam

qürubun mis rəngli ayazına
buludsuz göydən enən bir zərrə qar dənəsinə
nəfəsimin buxarı arxasında oynayan
tanımadığım yapışıqlı üzlərə
budur boş bir zərf yerinə açılır içim

göndərməyə  bir ünvan olmasa da
öyrəncəliyəm  artıq özümlə daşıya-daşıya
qədər yükünə çevirməyə  hər yazını

bəzən gərəksizliyinə inandığım bir nəsnəyə
çıxar başmaqlarını keç bu qapıdan deyirəm
düşmən olmasaq da
yalın ayaqlarına baxmaq istəyir lütfən
çimirsizliyimdə başqa bir mən
bəlkə özünə doğru gəlirkən
qırılmış camlar üstə yeriməyin
sirri yazılıb onlara

çıxar papağını ehtiramla keç deyirəm
dost olmasaq da alnından öpmək istəyir lütfən
sükutumda özgə bir varlıq
bəlkə  adam  kimi yaşamağın sirrinə
işıqlı bir qapı açılır oradan

bəzən də ömrün nəqarətində
bir yorğunluq budağı titrəyər
budaqda  ağzı zığlı bir quşcığaz görünər
dən ataram baxmaz uçar
göynəmərəm
heeeyy gidi dünya deyə  hayqırmaram
kor gözündə sünbül qılçığıyam çünki yaşamın
boş bir zərf yerinə açılanda içim ona
baxmaz üzümə - yaxşı ki baxmaz
baxa bilməz

amma o da mənə
çıxar ürəyindəkiləri keç bu qapıdan deyər lütfən
doğma olmasaq da
əlindən tutmaq istəyir bəlkə
ölümümdə yad bir yaşam deyər
çünki mən bacarmadım deyər
bəlkə də  bir zaman güzgülənməyə möhtacların
baxtı güldü çiskinlərində sənin
ey dumanlı qəlbin sahibi deyər

## heç nə vəd eləmir bu kahin görkəmli gecə

səssizlik oyur-oyur deşir qaranlığı
heç nə vəd eləmir bu kahin görkəmli gecə
çarəsizliyin küçəsindən keçməyə gücün çatmır belədə
ölüm yarasalarının səssiz gərdişindən
qulaqları batır yalqızlığının

olmuşların küfrlə geriyə qayıdacağını düşünürsənsə
məhrəm olmayanlarla sənin aranda
demək qılınca dönməmiş tövbən əsla

oxunmuş duaların üstünü örtmüş gül ləçəklərinə
küləklərin niyə heç zaman toxunmadığını bilmirsən
sən hələ də dolu patronların atəşdən sonra gilizə döndüyünü
və bir də dolmaq şansını itirmədiyini anlamaqda zorlanırsan felən
atəşlər olacağını hələ də atəşlər olacağını hədəfdə can cizgiləri
Gül rəsmi və toranlarda
isti-isti bir zühur olacağını dərk etmədən ağlayırsan

bilirsən zavallı olmaq məsum olmaq deyil hələ
oxumursan neçə illərdi içindəki oyur-oyur sükunəti
haqdan gəlməyən bütün cansız sözlərin
dərgahlara ayaq döyməkdən dabanları yeyilib artıq
amma səsin didərginliyinə can dözməz bilirsən dözməz
buna görə də məsələn qarabağda səs yiyələri
ipək yaylıq misallı səslərini görünür oralarda
qocaman ağacların budaqlarına bağlamışlar köçürkən
indi o səslərin yan-yörəsindən güllələr çovuyanda
burda qapısı taxtalı umudlarımızın yuxusuzluğundan qan açılır
oxuya bilmirsən oyur-oyur ovcuna damcılayan göz yaşlarını

səssizlik eləcə deşir qaranlığı
heç nə vəd eləmir bu kahin görkəmli gecə
səni düşünəndə -  göyün üzünü
özümü düşünəndə yaşamı düşünürəm oyur-oyur
sən hələ də göyün üzü qədər qaranlıqla işığa oynayırsan
yaşamsa o qədər adiləşib ki
sakitcə ölüb gedənlər elə bil dünyadan getmirlər
başmaq seyrindən qayıdırlar qeybə

## bir yaz tatuajı

dirilən yaşıllıqların yanından
zəifləmiş vücudunu sürüyə bilməyəndə ayaqların
içindəki son işartının cadusuna qısılırsan: “Allahım, yazdır...”

yazda daşa divara salam verməmək olur
gül dediklərini dindirmədən yan keçmək olmur amma

bircə pıçıltıyla paraşütləri açılanda dilədiklərinin
açaraq ovuclarını əllərinə enəcəkləri anı gözləyirsən
bu halını görürkən
qafil dua oxuduğunu düşünər
arif – məqamın gəldiyini
amma heç biri bilməz
dualar çoxdan üfürülmüş gül ləçəkləri altına
qismətlər çoxdan çəkilmiş gül suyuna
can çoxdan azaddı gözləmələrdən
çünki sən hürrsən

Tanrının bütün qulları qardaşdı deyə
ovcuna götürdüyün bir qarışqaya
pıçıldarsan vücudunu tikan-tikan eləmiş hisslərini
dirilən yaşıllıqların yanından
zəifləmiş vücudunu sürüyə bilməyəndə ayaqların
son hekayətinin son sözləri
güman ki belə olar: "yazdır, Allahım..."

## sınan cadular

yuvalarından yıxılan qanadları tüklənməmiş günlərin
sarıca dimdiklərində
heç vaxt oxunmayacaq iflic nəğmələrik biz

doğuşu tərsinə gəlir insafsız yazıların
cadusu murdarlanmış cahan sevdasını
sətir-sətir təzələyir küfrün yağmurları çünki

papağına lələk taxmış ağ atlı cəngavərdi Söz
Gülün fərmanıyla qurudur ələmləri
şeirin qan daman tüstülərinin içindəki göyərçinlər
havanın paklığını daşıyır göyün ağrısından kitablara

əzbəri pozulmuş adamlar qurtulduqca
sınan caduların əqrəb sürüləri nizamsızlıq içində ölür
Canın Yazı Taxtasında

## tıxac - 1

burda topqarabirçək kəndli balaları
gözlərini açana qədər dənizin adaxlısı şəhər
bic-bic öyrədər onlara yosunlarında
balıqlara yem olmağın sirrini

amma doğma kəndlərində həmişə
qarışqa menyusunda olmalarını bilsələr də
fərqinə varmazlar
çünki deyərlər
o var
olmuş
və həmişə olacaq
hələ ilanları da misal çəkərlər
gözlərin dadını hamıdan yaxşı bilən ilanları
bu zaman dişləri tökülmüş bir məntiqin heç də
üz qırışlarındakı üfunət qoxusundan
bulanmaz ürəkləri
bayılmazlar

barların bic uşaqlara oxşayan işıqları
dumanlı xanımların
çılın-çılpaq sinələrində göz vururkən sırtıqcasına
qaranlıqlara soxar halal südün əhdini
tər sevdanın nişanələrini

kəndin ismarıclarına cavab kimi
gecəyə ilişmiş yosun qoxulu bir qağayı lələyini
pay aparmaq da gəlməz əllərindən bənövşələrə

çünki torpaqla qağayı lələyinin
alış-verişi tutmaz bərzəxdə bilərlər
balıqların ruzusuna
göz dikməz qarışqalar bilərlər oralarda

mesajlarında yazarlar:
dənizin adaxlısı şəhərin dərsinə kim geciksə
qəm damağına qum boğazına dirənər
yosunlarında hökmən

batmaqda olan gəmilərin dor ağaclarına qonan
qağayıların çığırtısını
sahilə çatdıranacan yolda ölmüş küləklərə görə
başsağlığı verən olmaz dənizin adaxlısı şəhərə
başqa küləklər dolar topqarabirçəklərin
qara kəkilli yığvallarına təzə eşqlə

hər gün gündəmdə bağırçatdadan şəhər olar
söhbət yosunlardan balıqlardan gedər dəniz ləhcəsində
qarışqa menyusunda əbədi olmalarına sevinərlər gizlicə
əllərində qağayı lələyi olsa da
unudulmuş kimi görünərlər
tıxaclarında qədərin onlar

## tıxac - 2

gəmilərin fitinə içindən burulmayan
cındırından cin ürkən
bir vecsiz liman sərsərisi deyil bu şəhər
olsaydı çox güman
bir divanəlik yapıb onunla
çoxdan pozmuşdum iraq
Gül qoxulu tövbələrimi

o zaman heç kimdən heç bir diləyim olmazdı
heç nə gözləməzdim əsla
özünü ala buluda çırpan şeirlərimdən də

heç dostları doğmaları itirmək də
bir çocuğun qırılmış və küləklər aparmış
çərpələngi qədər acılar doğurmazdı içimdə

şükür bu sayıqlamalar
dualara sarmaşıq bir ruhun
ayağının tozunu da öpməyə yaramır heç

bu şəhər bir vecsiz liman sərsərisi deyil
boynu qalstuklu bir məmur da deyil
öz görkəmiylə
boylu buxunlu binalarıyla yüyürüb gəlib sahilə
elə bil  indicə gəzməyə çıxacaq bir gəmiylə
hələ acıq da verir adama
qərbin podiumuna çıxarılmış
şərqin bu naşı  bu çadralıı top modeli
amma bir türkü istəsən
məsələn bir  “xan çobanı”
oxuya bilməz topuq vurar dili
qurudar bizi anbaan
bu pir olmuş iç qatili
bu göyü günəşli gözəl
bu dibi neft qoxulu zindan biçarə

## sabahın üç surəti

sabahın əsəri gələr-gəlməz
dənizin mor üzü görünər-görünməz
fəcrin sehrinə doğru dartınanda
toranlı su qırçınlarının yuxusuzluğu
yanıb sönən işıqlarında umudlarımızın
surətimizi çıxardır kor qaranlıqlar can üstə

*birinci surət:*
qoca balıqçı yenə tutduğu birinci balığın
sol gözündən öpüb buraxır suya

özünün də gündə neçə yol
beləcə gözlərindən öpülüb
dünyaya buraxıldığının fərqində olmadan
edir bunu o

*ikinci surət:*
o gümüşü balıq
gözündə yad bir öpüşün istisi
damağında qırmaq yarasının ağrısı
var gücüylə sulara çırpır yaşamaq yanğısını

*üçüncü surət:*
içində tərpənişlər atan bir görüntü
qaranlıqdan sıyrıla-sıyrıla
iyrənmədən ögümədən
udur bizi
ağzında dan yerinin qızartısı

## axşam olunca

axşam olunca
alatoranlarında sükutun
nə olacaq görəsən itirilsə hər şey

hər dəfə çəkilən isti bir ahla
ərşə bülənd olmağına
bir şey qalmır bu məhrəm görüntülərin

budur
bir qaratoyuq səsiylə yırtılan sehrin tuluğu
toranlığın dibinə boşalır bir canın küncündə
nə olacaq
nə göyərəcək görəsən hər açılan sirdən

xülyaların keçən karvanlarından qalxan toz
örtür hər şeyin – hətta yaddaşlara ilişib qalmış
vağam olmuş ağlamaq səslərinin belə üstünü
bir şey qalmır çaşqınlıqlara üzülüb
“yoruldum qiyamətlərdən!” ahından tüstüləməyə
nə olacaq görən

intizarı son nəfəs kimi çəkənlərə
gecələr şələsində yalnız sabahlarımı gətirir

axşam olunca halsız
alatoranlarında qədərin
nisgillər ürpənir qiyamətlərdən
nə olacaq görəsən bundan o yana

## yıxılmaq

eşq gəlir eşqə yıxıl eşq gəlir eşqə dedi mürşidlər

biz hər şeydə gec qalırıq görünür
necədi aman-zaman bir şansın ola
onu da uçurub öz əllərinlə
peşmançılıqla günə-rüzgara
yaxa tutdurasan Can Bazarında

üstünə qərənfillər düzülənə qədər
elə biləsən ki guya hər şeyi sən diqtə edirsən
bir gün ixtiyarsız Ona sarı səslənəndə
açıqcanın tərs üzünə yazılmışlar
görünəndə gözünə qəfil
necədi  "ey dili-qafil..." deyib
haqqı anşırmağa vaxtın olmaya
və bağlana zərfin ağzı

yox mən sadəcə bir fəthin doğurduğu
acıyla limhəlim dolduğumdan
uçuqlarında quş yuvaları çiçəkləmiş
xaraba yurd yerləri qədər
kədərli bir görüntüyə bayıldığımdan
yıxılmadım boşuna sevdasız günlərə
eşq gəlir eşqə yıxıl eşq gəlir eşqə dedi mürşidlər

biz hər şeydə gec qalırıq görünür
bu çocuq ürəyin
bu qoca ağlın kəsdirdiyinə görə
onun özü də sorğuların cavabı kimi gəlməliydi
amma əslində cavablardan
yeni sorğulara bir nərdivan oldu
və biz yxılmaqdansa pillə-pillə endik yaşama

yaşam – qonaq çağırıldığımız nə bir dost məkanı
nə də aləmlərə faş olan
üzgün bir canın son duracağında bir kölgəlikdi
yaşam köləlik də deyil
eşq tərəzisində bir  pərsəngdi sadəcə –
o da  taraz deyil nisbətə qalsa
hər kəs
enib barmaqları ucunda sahmanlamaq istərkən onu
haqdandı bəlkə də
özü də bilmədən
düyməsinə toxunur yeni bir eşqin
və dəyişir yaşamın yaşıl ekranında görüntülər
odur ki hələ də
eşq gəlir eşqə yıxıl eşq gəlir eşqə deyir mürşidlər

## suru çalınmış bir zamanın çocuğu olmaq

suru çalınmış bir zamanın çocuğu olmaq
sənə asan gəlməsin bu iblisanə görkəmdə
yalın ayaqlarını soyuq küllərə basmaqla
bənəklər açar dabanlarında qor dənələri
gizlinlərin nişanələri üzündə cizgilənər
əvvəl gülüşlə sonra qırışla ən axırda aldanışla
suru gözləyə-gözləyə güzgülənər adam
hər sirrin açılacağına inana-inana
öz qınına sinər adam
beləcə yetər sona
o da
zaman da

gecələri çardaqlarda yahuları tutmaqla keçirdiyi
səfil uşaqlığının suçunu
alaca gözlərində daşıyan bu nüzul adamın
tövbəsi eşidilən gün
inan
bu yerdə göydə
imana gəlməyən tapılmaz yəqin
suru çalınmış bir zamanın çocuğu olmaq
sənə asan gəlməsin bu piranə görkəmdə

vətənə dair sorğular sevdaya dair cavablar
ələyində kəpəklənən xırım-xırda hər nə varsa
içdən dışa qabar-qabar çiçəkləyən gümanlar
səksənməz surun səsinə kar olmuş sinirləriylə
qəssab kötüyündə qan köpüyünə tay olmaq
istəməz istəməz istəməz bu adam
suru çalınmış bir zamanın çocuğu olmaq
sənə asan gəlməsin bu acizanə görkəmdə

qonaq olduğunu bilər bir quş kimi bir qarışqa kimi
marşına təpik döydüyü haqq ordusunun
ölüm yüklü bir əsgəri olduğunu bilər
möhürünə cızılmışları anlamaqdan yana
özüylə çiling-ağac oynayar hər addımbaşı
öləndə də guya ölmürmüş kimi ölər
suru çalınmış bir zamanın çocuğu olmaq
sənə asan gəlməsin bu şahanə görkəmdə

## göyün üzü çopur-çopur gülləmişkən

göyün üzü çopur-çopur gülləmişkən
gətir bir ayə oxuyaq gecəyə dair
ya bir şeir deyək sərinliklərə yönəlik

ah ciyərlər hava umar
sözdən sisdən yağmurlardan
ölüm kamerasında şairlər doğulur
olum kamerasında gerçəklər ölürkən

göyün üzü çopur-çopur gülləmişkən
gətir tozunu üfürək olmuşların
qanadlarını suya toxundurur gecə quşları
bu yalnız suyun qazancıdı gecədən
dili açılmış lal bir su qırçını genəldikcə oxunur
oxuyaq görək orda necə yazılmış bu gəlim-gedim
yoxsa  bu mavi qübbəyə səslənən bizik yalnızca

göyün üzü çopur-çopur gülləmişkən
gətir bir saz havasında qıraq gərdişin simini
görək necə kəsilir qəflətən nitqlər
necə quruyur yapma alqışlar havada
xəzəl kimi necə tökülür qondarma gülüşlər
görək təzədən necə başlanır kərəmilər şikəstələr
onsuz da aşiqlərin hər damla göz yaşına
bir heykəl düşür əslində
ölümə çapanların adı gülləmişkən içimizdə
qana batmış ləçəklər nəfəslər ahlar kəsir yolu
iyirmi yanvardan ya xocalıdan keçən yolu da
özünü asmış ümidlər pənahlar kəsir
yanıq bir hicran çağırır qatarımızı
işıqları keçmiş duracaqlara
göüyn üzü çopur-çopur gülləmişkən
tozumuz qopur susqun fələyə

## ömrün yay şablonları

torpaq doymuş kimi görünsə də üzdən
amma içdən həmişə acdı nə yazıq

sınıq qanadlarını sürüyə-sürüyə gedən
nəfəsi qurumuş üzgün yay küləyi də
tox tutur özünü adamın duyğusuna qarşı

bir az dərinə getsən görərsən kölgəliyinə təpildiyin
ağaclar da içdən necə üzülür ilğımlarda
amma heç nə olmayıbmış kimi
verdiyin salama əleyk eləyər hər biri
öz ağac dilində az qala

özünü sultan saydığın
amma əslində
bir qarışqa qədər şansın olmayan  dünyada
kim olduğunu anlasan bir gün
beləcə agah olmalıdı sənə zamanında hər şey

ən azı görünməlidi: qorası necə bişir çiy sözün
yetişmiş sözün ləti necə dağılır dodaqlarına
niyə kimlərsə  pıçıltılarına  şeirdi  söyləyir
nəfəsindəki atəşə dəyib dirilən rüzgara
hansı dərd dağıdır telini hər gün
ən azı bilinməlidi: doğrudanmı yaydı
yoxsa bu istilərin mayasında
heç bir eşq filan yoxdu
başına gün döyə-döyə
ömür hansı çölün yolçuluğunu yapır bəs
bu çöldə dərisi yanıb alışan
hansı hicranlardı hansı gözləmlər

torpaq acdı doymuş kimi görünsə də üzdən
insan da acdı
amma nə yazıq
özünün yalançı sultanlığından
heş vaxt  doymuş olmur
ən azı doymuş kimi görünmür o

## özünü ötmüşlərin yazısı

ildırımlar göyümtül işığıyla
boşluqları sirli şəkildə yazanda göy əlifbasında
sonra da göy dilində oxuyanda gurultuyla birnəfəsə
gülün özəyində titrəyən
kəpənəkləri düşünüb ağlayan uşaq
ovcunda paslı bir açarı bərk-bərk sıxırkən
hardan biləydi haçansa şair olacağını
qapıların qıfılı qırılmamışdı hələ

qaranlıqda «bəlkə də işıldaböcəkdir» deyə
yola atılmış sönməmiş siqaret kötüyünü
tapdamaqdan çəkinəndə də bilmirdi hələ
canının dibində ocaqlara od vuran əllərin
ruhunda nələr qaynatdığını
qıfılı qırılmamışdı hələ qapıların

ölüb sevda kədərindən
sümüklərinəcən çiçəkləmək istəyəndə
artıq keçmişdi  ildırımların işığını
göylərin dilini əlifbasını
kəpənəkləri işıldaböcəkləri
ötmüşdü şair olduğunu

ölüb sevda kədərindən
sümüklərinəcən çiçəkləmək istəyinin
gerçəyə çevriləcəyinə inananda
mürşid kölgəsində nicatlara girib
artıq qıfılı qırılmış qapılara gülümsünürdü

ölümlə üz-üzə oturub
gərəksiz paslı bir açar haqqında
ildırım yazısında şeir oxuyurdu
fanilərə sarı titrəmədən
göy dilində

## ustad

saçları yastığına dağılmış bir yuxunun
bağlı qapısı önündə
səhərəcən gözlərinə sağıldı qan qırmızı çilələr
amma o bilmədi işığın doğum anında
Can Pətəyindən daman nədi yalqızlığa eşqə

yaşamın dişləri arasında qum dənəsinə dönərək
xırçıldadıqca ürpənirdi vücudu
silahını yerə qoyub çıxardı üzündən niqabını
bunu ona görə etmədi ki qoy artıq tanısınlar
sözdən günəş yonarkən
yanaraq ölməkdə olan bir heykəltaraşı
yox
saçları yastığına dağılmış son yuxunun
açılmaqda olan qapısı önündə
son kərə nəfəsini dərmək istəyirdi ustad

## əllərin cibindəykən

əllərin cibindəykən
küləkləri nəfəsinlə qılınclamaq
daşlayıb sındırmaq günlərin qanadlarını kipriklərinlə
heç insafdan deyilmiş mürgülü üzünü dünyaya tuturkən
başını səcdədən qaldırdığında çağrılaraq
pəncərənin pərdələrində bir kölgə sayağı
bıçaqlanmış don kixotun qanlı rəqsinə girirkən
hönkürmək heç insafdan deyilmiş dibçəkdəki gülə sarı

yırtıq çəkmələrindən barmaqlarının ucu gülür olmuşların
keçməkdə olan yolçuların nəfsindən üzülür olacaqlar
çarmıxın dörd guşəsində dörd gül çəkib
üstünə ay qonduran həvarilərə bir əmmamədi
qılıncının qanını sildiyin ala bulud
əllərin cibindəykən

əllərin cibindəykən
üç badam bir qoz fəlsəfəsiylə
başının içi çatlayır yaşamaqdan
əllərini cibindən çıxarıb da
əti tökülmüş barmaqlarının ağaran sümükləriylə

göyün üzünü cızmaq keçməz ağlından
qandan yağışdan nəsə bir şey yağsın deyə

## kətanda solan yazı

kətan önündə əli fırçalı durmuşkən
yenə düşündüyümüzü deyil başqa şeylər çəkirik

niyəsini soruşmadığımız bir çox nəsnələr
bu üzücü günün yazısına  dönüşməzdən öncə
bizim yazımıza qarışır həmişəki kimi
qarışdırır yazımızı

tabloda dəniz haqda düşüncələr olmalıydı
amma sükutun fırtınası düşmüş aynasına günün

dənizə baxanda
adamın  heç inanmağı da gəlmir
bu azmanlıqda dəniz olasan
bu dərinlikdə də sükutun ola
özün də sükutun fırtınasında boğulasan məzlumcasına

söz yox
çiy kərpicdən tikilməyib səbrimizin evi
sel gəldiyində uçub dağılmaz göz görəsi
amma sel yox  dəniz olmalıydı
dəniz haqda düşüncələr olmalıydı tabloda

kətanda solan yazıdan isti bir görüntüyə baxaq:
yanbızlarını oynada-oynada
yan keçir  bir ömrün yazı
qanrılıb arxasıyca baxır
özünü təzəcə tanımış on dörd yaşlı bir oğlansayağı
əllisində bir kişi

amma dəniz yoxdu tabloda
dənizdən qalmış sonsuz qumluq görünür
bir də qumluqda dəvə ləpirində
günəşin gözünü qamaşdıran
gümüşü bir balıq ölüsü görünür

## istəklərin dar ağacları

nəfəsi od qoxuyan buğdayı bir yay günündə
adamın bax beləcə  yenilməsi olur özünə
deyilmi

əncir ağaclarının yaymaxatın yarpaqları ölüşgüyəndə
suların sısqalmış səsi imdad diləyəndə qulaqlarında

xəyallarında yaşıl dəryaların balıqlarına dönürsən
amma balıq deyəndə balıqçılar yada düşür
balıqçı deyəndə tilovlar gəlir göz önünə
tilovlar balıqların dar ağaclarıdı deyirsən
balıqçılar – cəlladları
qoy olsun
amma dara çəkilməkdən doymaz könül
çünki aldanmağın şəkərində bulur özünü hər dəfə
hər dəfə əzablara yürüyür tilova cumurmuş kimi
yolun qayıtmazlara dönüşündən o qorxmaz əsla

olub-keçənlərin mizan-tərəziyə sürüklənməsinə
bu buğdayı yay günü də bir bəhanədi

balıqlar sahillərin isti qumluqlarına atıldığı kimi
fani vücuduyla ölüm sevdalarına atıldığını bilsə də
adamın bax beləcə yenilməsi olur özünə
balıqcasına – yəni igidcəsinə
deyilmi

## axsaq sükut

*«çılın-çılpaq bir yalanın hicabına dönür adam*
*adam dönür pərdəsinə üryan bir həqiqətin*
*başı cəllad kötüyündə əli baltalı adam*
*həm belədi həm də elə, balıqlar...»*

***yarımçıq bir şeirdən***

balıqlar yosunlar sular və qumlar
adam suçunu bilsə belə
yenə özünü haqlı sanır sonda
zaman da həmişə belədi

axsaq sükut yol gedir saat əqrəblərində -
çəliyinin səsi gəlir ömrün əvvəlindən axırınacan

əslində sükut yox - zamandır axsayır həmişə
bizə ildırım sürətiylə görünsə belə keçdiyi

balıqlar yosunlar sular və qumlar
dostlar qohumlar
bir yaz axşamı iplik-iplik saçaqlanarsa içimin ilmələri
sözümün başına kəndir salıb sürümək də olar
çırağa uzanan sonuncu kibrit dənəsi yarı yolda sönərsə
qaranlıq sükutun diqtəsinə dözmək suçunu
yaşamaq qədər şirin
bir həqiqət yazılarsa əməl dəftərimə
mən hazır cəzalara hönkürmədən
gəlsinlər
aparsınlar

o zaman artıq canları yağır etmiş
axsaq sükutun çəliyinin səsini
mən eşitməyəcəm bir daha
sizdən fərqli

## başlanğıc uvertürası

qoyduq bir qırağa dünya işlərini artıq
indi nəfəsini belə çəkmədən
böcəklər sümürmüş bir yarpaq taleyi də yaşamaq olar
tabut qapağına çalınmış bir mismar taleyi də

qoyduq bir qırağa artıq dünya işlərini
alışmış Can Mənzilinin yalqız
                                        tüstülü pəncərəsinə uzanır
həyatın bir yanğınsöndürən nərdivanına oxşar
                                                            gümüşü və soyuq əli -
indi onunla titrəyə-titrəyə aşağı enməkdənsə
od kimi tüstü kimi burula-burula yuxarılarda itmək
daha gözəl daha şərəfli

ölümün haqq olduğu qədər
haqqımızın sübuta ehtiyacı yox artıq
dünya işlərini qırağa qoyduq daha

## ölü aşiq

kürəyində süngü yarası olmasa da
ağzıquylu düşmüş sıradan bir payız
qımıldanmadan keçinir ayaqlar altdakı
qan-qırmızıya boyadığı yarpaqlar içində

düşünmək olar:
bir azdan postmodern həyatın
çəkmələrinə yapışmış ölü payız
sürüklənəcək yağmurlu səkilərdə

sərxoş günlərin qəhqəhəsi
xəzrilərin tikanlı üzünə üz qoymuş
bir şəhərin yuxusunda
matəm melodiyasına dönüncə
kim olduğunun fərqinə varacaq guya
günahlar yiyəsi

amma heyhat
qanuni oğru durumunda olan
bir yaşamın diqtəsi

başqa şeylərdən xəbər verir
«daş dəydi cam qırıldı» türküsündə olduğu kimi
sonda bahar gəlmir
sonda aşiq ölür
öldürülür əslində
daha doğrusu öldürtdürülür

## nə oldu bəs

lampa söndü göz yumuldu səs kəsildi
sonuncu söz qaranlıqda laxtalandı
bitirdim dualarımı artıq
canım yüngül - qu tükü kimi
yəni ölümün ola bilərmi bu girəvə
sağımdan küləklər əsməliydi axı baqidən
bəs nə oldu

bu girəvə ölümün ola bilərmi yəni
həmdin üstündən gül ləçəkləri sovrulmalıydı
ölümün üzünə
utandırmalıydı onu nəfəsimi çəkən nəfsinə görə
nə oldu bəs

yəni bu girəvə ölümün ola bilərmi
bəlkə də
ölümlərin ən şanlısı
və ən şanslısı olmalıydı mənim ölümüm
gözünü yumaraq gəlməliydi üstümə suçlu-suçlu
ən azı «neyləyək, belədir…» demək istədiyi
bilinməliydi gəlişindən
və sağımdan küləklər əsməliydi baqidən

yəni bu girəvəni gözləyən doğrudanmı odur
odursa nə oldu bəs
lampa söndü axı

## şair olanda nə olar

şair olanda nə olar
adamı yellərlə yox sellərlə çəkməlidi savaş

nəinki hər sözün
hər çəkilən ahın belə sorğusu bizimlədir mizanda
məsələn, tez-tez Sözün qiyamında öldürdüyümüz
sürməli yaz gecələrinin cənazəsindən
qəfil yuxumuza əsən
yasəmən qoxusundan diksinməyimiz haqda
nə yazmağımız kimə nə söyləyəcək bilmirəm

amma sellər aparacaq bizi sorğu günü, sellər

ruhun qiyamətinə sarı
artıq qumaşların ən gözəli biçilmiş
köynəklərin ən güləbətini geyilmiş
yazılanların ən oxunanı oxunmuş
deyilənlərin ən həqqanisi eşidilmiş söyləyəndə də
dediklərimizə görə hazır olmalıyıq sellərə

ruhun qiyamı öncəsi qumdan saraylar tikənin
sultanlığı yağışlaracan olur sözsüz
yağışlardan sonra
yellərlə yox sellərlə başlanır savaş
o zaman
olümə məhkum edilmişlər ordusuna
bizi də  götürəydilər keşkə
eşqdə mənəm deyənlərlə
birlikdə gedərdik bu şanlı  cihada
nə olar şair olanda
mizanda boşdur hələ də
tərəzinin bizimçün ayrılmış gözü

## antimuza gerçəkliyi

### a) aldanmaq

şeirin yalçın yüksəkliyində
kəndirbaz gəzişmələri qorxudursa  şairi
onda heç nəmənə

şamı söndürülüb musiqisi çalınmış
kitabı bağlanıb duası oxunmuş
bir axşamın qucağında keçinmək qorxusuyla
yalqızca üz-üzə qalmağın gerçəkliyi
hər Sözün koranə  gəlişini
yalandan bayram eləməkdən daha şərəflidir

şeirlə dirilməyi bacarana «eşq olsun!» düşür
olsun
amma şeirlə dirilməyi bacaran ən azı
ölümü yaza bilməlidi ömrünə qulaq qafiyəsi kimi

miskinlərin həqiqəti daha güclüdür deməklə
həqiqətin başına tac da qoyulmur heç vaxt
sərxoş şair əlindən öpdükcə
ayağı yer alır postmodern yalanların

isti bir havada qəfil peyda olmağıyla
üzümüzə çəpəki çırpan
sərin bir yağışın yaratdığı

ya da tutaq elə
metronun axşam qatarında şirin-şirin yatmış
bir səfil uşağın çöhrəsindəki
məsumluğun doğurduğu
can titrəyişi sözə çevrilirkən
ölümün çiçəkləmiş
və həmişə başımız üstündə yellənən budağını
soldurmur yazılanlar

özünü aldatmağın ən ucuz yoludur bu

**b) zamansızlıq**

«bu qırçın ətəkli yalqız buludu
dəlisoy külək ah necə də zalımcasına
necə də insafsızcasına
sürükləyir dağların dalına» yazardı
on səkkizində olsaydı gözləri bu şairin
qələmi on dördündə olsaydı hələ
əbcət hesabıyla artardı südəmər fantaziyası

amma indi bu qırçın ətəkli bulud
bu dəlisoy külək və
dağların arxası heç nəyə yaramır
çünki zamansızlıq var
saralmış kəfənlərində ölü iddiaların

görəsən indi gözləri neçə yaşında olar
qələmi neçə yaşında olar
əbcət hesabıyla bu şairin

## c) çaşqınlıq

– dağda
sumağ kollarının dibində balalayan küləklər
çoban qızlarının ayran qoxuyan hörüklərinə
aşiq olmaqla dəm tutur obalarda –
bunu bir şair yazırdı bismillahsız filansız

dəftərlərin kitabların içində aləmlər dəyirdi biri-birinə
sözlərdən qalxan kosmik gəmilərin
göyün göbəyində açdığı şırım
az qala qurbağa gözündən sıçrayan sirləri də alırdı içinə
gənc şair donqabel yalanlarına görə
ürəyinə qələm sancılacağından qorxurdu bir gün

amma yenə yazırdı:
– aranda

yayın yaşıl köynəyi üstündə unudulmuş
qızmar bir ütüdü istilər
yandıra-yandıra tüstülədir çiçəklərin otların ruhunu

sonra da belə yazırdı:
– dünyanın sonu görünmür eeey görünmür ustad
qələm qənim olacaq bizə

## poçt göyərçinləri

iki ünvan arasında
çırpına-çırpına həyəcanlı bir ömür sürmək
təkcə poçt göyərçinlərinin yazısı deyil
bu həm də bizim yazıdı

hər gün
şonqarlardan sapına-sapına
caynağına bağlanmış bir məktubu -
ürəyimizi məchullara aparan Eşq
əslində bir poçt göyərçininə dönür elə
hər gün də  oralardan gətirir ruhumuzu -
içimizə əsir  işıqqarışıq

iki ünvan arasında
özümüzə açdığımız savaşlarda
içimizin qətliyamından qurtulmuş sözlər
indi şeirlərimizin hörgüsündə
hürr şəkildə söykənmiş biri-birinə

indi bir ruhani havasıyla suvanmış
heyrətimizin divarları üstündən
keçir poçt göyərçinlərinə dönən
sevdalar

iki ünvan arasında
qanad küləyindən
boşluqlara tökülür olmuşlar
olacaqlar

## söz + …

təki deməyə sözün olsun
böyük ustad demişkən:
«çanağında balın olsun…»

bir zərrə tozun uçduğu boşluğa üfürülən sözdən
ruhun ən şikəsti belə sağalır yalqızlığın hürr sınırsızlığında

o zaman burnundan qan açılan xəstənin dirilməsi qədər
şanslı olan reyhan qoxulu bir ümid boy verir canında aşiqin
bir sözün havaya uçuşunda belə
şəkərlərin şəkəri azadlığın
ruha ən gözəl məlhəm olduğu çıxır üzə
Söz + Ruh + Yalqızlıq  üçbucağından kənarda
ömrü boyu bir daxma tikə bilməyən aşiq
o zaman Azadlıq adında saraylar yapır
canın iztirablarından

bir zərrə tozun uçduğu boşluğa üfürülən sözdən
gülləyir yalqızlığın hürr sınırsızlığı
Azadlıq – yalnız o
yalnız və yalnız o
cövhərləri dəyişər çalarları duruldar
hilalı hilal yerinə qoyar ulduzu ulduz yerinə
günbəzlərində könül məbədlərimizin

təki ümid olsun reyhan qoxulu
təki deməyə söz olsun

## qaranlıqla işığın arasında

*T.Qaraqayaya*

bir can dayanır qaranlıqla işığın arasında

gözlərini bilərəkdən yumaraq
dünyanı zülmətlərə təpməklə
bir korun yaşantısını duymaq mümkünsüz
gözlərini açmağın bir sorumu olmayacaq –
kipriklərin doydusa biri-birindən
işıqlı dünyadasan demək artıq
daha bilmirsən könlün divarlarından tuta-tuta
çəliyini döyə-döyə ruhun səkilərinə
iynə ucu boyda bir işığın qoxusuna sarı
qiyama necə qalxırlar hər gün əsl həsrətlilər

bir can dayanır qaranlıqla işığın arasında
işıq – içəridə
qaranlıq - çöldə
biz həmin çöldəyik - guya işıqda
o içəridədi – qaranlıqdadı guya
əslində əksinədi hər şey
yummağa dəyməz gözləri

bir can dayanır qaranlıqla işığın arasında
biz də bir canıq  o da bir can
gözlərimiz açıq da keçə bilərik

biz -  qaranlıqdan
o – işıqdan

## adsız

barmaqlarının ucu don atıb artıq
iki ayağını bir başmağa dirəmiş yalqızlığın

bu zülmün  adı yoxdu

üzündə kübar görkəmi olmasına baxma
içi çürükdü bu təntənələrin

amma nə qədər ki
susaraq alın söykəməli pəncərələr
göz zilləyərək ah çəkməli uzaqlıqlar var
yaşamın şəkərinə duz qata bilməz heç nə

odur ha
neçə gündür
külək əsdiyində küknar qozaları tökülür
divarın dibindəki gölməçəyə -
səssizliyin üzünə şillələr açılır neçə gündür
açılır öpülməmiş qönçəsi yeni bir türkünün
ah yenə türkü
o türkü-hönkürtüdə
Can Evinin divarında cızılmış
bir halın toranlığa qarışmış rəsmi belədir:
- qərib aşiq, quşlar köçdü, sən qaldın
ayrılığın örkəni uzun, ah, nə uzun…
həsrətin qayçısı küt, ah, nə küt,
arada gül soldu üzünə ömür insafsızın
zalım,  zülmün qurusun, ah, qurusun…

## könlün azıbsa kəkliyi

bu yaşda da
könlün azıbsa kəkliyi
hər şeyi boşla getsin
divanəlik gəlir demək

o zaman fələyin darmacal girdabında
qum saatına dönür ömür-
yəni tərsə çevrilir yaşam
acılı şirinli günlər
təzədən süzülür ruhun qədəhlərinə

bu yaşda da

könlün azıbsa kəkliyi
axtarma daha
bir şonqarın caynağında getmiş demək o
ayaqların altında ayrılıqların dibsiz uçurumları
əlində intihar kəndiri
göylərdə yalqız və
qanlı bir lələyin uçuşunu izləmək qədər
bir üzüntü yaşamağa məhkumsan artıq
əgər doğrudan da duydunsa
onun fəlakətlərini
bu yaşda

## qəriblər qəribi

*«sevda adlı ehramlara bürüncəkli Söz -*
*könül adlı məbədlərin qərib zəvvarı*
*yol gəlir üzü haqdan bu yana…»*
***yarımçıq bir şeirdən***

üzü haqdan bu yana
ən qərib olanı Sözdü
çocuğunu kürəyinə şələləmiş
qaçqın bir Ana durumunda
İnsanın Can Evində
zaman-zaman sığınacaq axtaran Söz
əzablı üzünü gizləməyə çalışar
ehram kimi bürünər şeirə
gül kimi alışar hicabdan

qiymətini almayanda
qiyamətə qalan Söz
atmaz heç vaxt
çilələrin yol yoldaşı olan İnsanı
üstündə durar onun
ondan fərqli olaraq

## bir damla su boyda su buxunda «ol!» kəlməsi

açırsan bu son kitabı
deyirsən hər oxuyanda
tərxan bir şeirin şehli üzündən
içinin boşluqlarına
bir damla «su» kəlməsi damır elə bil
damıb da uzun zaman durdurur yanğınları ruhunda
fikirləşirsən: şeirdi demək qurtuluşun gerçək -
Ana Duası kərəmində bir şeir

açırsan bu son kitabı
yazanı kimdi soruşursan
ya üstündə ah çəkilmiş bir adın yiyəsidi deyirlər
ya üstündən saat addamış bir canın sahibidi
hər kimdisə
yazdığı bir damla «su» kəlməsinə qoşulub
özü də zamanın yanağıyla süzülüb gedir eləcə

deyirsən sözdü süzülən
bəlkə də «ol!» kəlməsidi
bir damla su boyda su buxunda «ol!» kəlməsi
sonra da duyursan
buralardan –
lap yaxından
yanğının içindən
közün altından
candan
canın odduğundan
su kimi süzülür nəsə
yox süzülmür -
bir atəşdən başqa bir atəşə sıçrayır Haqqın əmriylə
tərxan bir şeirin son misrasını
pıçıldayaraq ah çəkirkən dodaqların
sanırsan bir körpənin özülü qoyulur bu zaman

göylərdə quşlara gömgöy dərinliklərın halallığı
yerlərdə gözlərinə yamyaşıl suların
ormanların halallığı kimi verilmiş
sözün halallığına əriyirsən içini çəkə-çəkə
doğrudan da şeirdi deyirsən qurtuluşun bəlkə
heç nə anlaya bilməsən də
örtürsən bu son kitabı xoşbəxtcəsinə
gözləri yumulu nəsə pıçıldayırsan hələ də
bu kimin ilk kitabıdı soruşursan deyəsən

## qərənfilləri əlindən salmış şəhid qadını

özünə sıxmışdı çocuğunu
onu yıxılmağa qoymayan
çocuğun üzündəki şəfəq idi çox güman

havada nə cızmaq olar kömürlə – heç nə
amma o qapqara gözləriylə
yoxluğun rəsmini cızırdı aydınca -
işığını qaralayırdı boşluqların
o an yağmur yağsaydı
minarələrdən tutmuş bayraqlaracan
evlərdən tutmuş adamlaracan
hər şey qaraya boyanmalıydı

amma yağmur yağmırdı
hər şey öz donuqluğunda
öz vecsizliyindəydi

havada nə cızmaq olar bir çocuq üzünün şəfəqiylə –
düşünürəm: Allah kəlməsindən
və ya Ana sözündən  başqa heç nə
o zaman yoxluğun rəsmi cızılmış boşluqların
bir hüzur içində başlanardı təntənəsi
və o an yağmur yağsaydı
işıqlı bir gürşad
alardı öz içinə
minarələrdən tutmuş bayraqlaracan
evlərdən tutmuş adamlaracan hər şeyi
donuqluğun vecsizliyin ipliyi üzülərdi bir anda
amma yağmur yağmırdı

özünə sıxmışdı çocuğunu
və çocuğun  üzündəki şəfəq
yıxılmağa qoymurdu
şəhid ərinin məzarı başında
qərənfilləri əlindən salmış dul qadını

## qədr gecələri

bir qanad pırıltısıyla necə küləklənərsə
yerindən necə tərpənərsə bir qum dənəsi
eləcə o gecə bir kimsəyə görünmədən
başlanar  gərdişi bu tilsimli çarxın

beləcə gələr milyonlar bir tərpənişlə
ayaqları yanına  mövlamızın qədr gecələrində
«sən nə bilirsən nədir o?» sehrinin
açılacağı umuduyla amanda olanlar
oturarlar ayaqları yanında ermişlərin

dualarında zikrlərində kamilkən hər biri
ruhani bir sükut sidr qoxusunda uyudar onları
səbir ruhun ən paslı kilidlərinə də açardı o gecə canda
can  - amanda
ruh - amanda
ibadətlər bitib-tükənməz
gecə qulaq kəsilər tezliklə eşidiləcək bir qanad səsinə
zamanın sahibindən bir soraq gözlənər
az  qala  hər tərpənən qum  dənəsində  belə
bir sirr gizlənər o gecə
başlanar gərdişi tilsimli çarxın

## bir məqamın gerçəyi

səhraların su yuxusunu görmək
bir məqamın gerçəyi olduğu qədər
bir yazıdı ilahidən - amma yoza bilsən

girmə bu dərdin altına deyirlər
çat veribdi tağları - amma kimdi baxan
bu həqiqətin  budaqları verən bar
bir məqamın gerçəyi olduğu qədər
bir ruzudu ilahidən – amma üzə bilsən

göy səni danışdırar
sular səhralar həmçini
can bunlara
bir məqamın gerçəyi olduğu qədər
razıdı ilahidən – amma dözə bilsən

## ana xatirəsinə şeir yazmağa can atan şairə
## bir-iki dost sözü

ana haqqında yazmağa can atan şair
söz yalnız anaların ayaqları altına qədər gəlmiş
peyğəmbər dodağından su içərək
oradaca çiçəkləmiş
bundan o yanası yoxdu biləsən
vəssəlam

bu sevdaya könül huylayan
heç nə alınmayacağını bilmirsə
dərdlilərin ən dəlisidi demək

ana haqqında yazmaq yox
ana haqqında oxumaq olardı içdən
özü də yalqızlıqda bir qumru kimi
özü də axşam çağı şər qarışanda
heç kim bilmədən

yazmaq yox susmaq olardı
sevgiylə
içdən
onsuz da alınmayacaqdı heç nə

yazmaq yox ağlamaq olardı yalnız
gün batanda
hönkürmədən
dən-dən
düşünərək yox
bilmədən

bildirmədən bir kimsəyə
üşəndirərək yox
üşənərək
ölmədən
öldürmədən bir kimsəni
vəssəlam

## divanım qurulur

hər sabah hər axşam haqdan nahaqdan
divanım qurulur gözüm baxa-baxa

tutalım
çəpərin üstündə bir cüt göyərçin öpüşür
içimi çəkərək nəsə deyirkən
sözümün qulpu yoxdu deyə
tuta bilmir qafil
cəllad kötüyünə sürüklənirəm o an

hər sabah hər axşam haqdan nahaqdan
su – duracağı yerə qədər axır susuram
can – susacağı yerə kimi üzülür baxıram
məhşərə aparılıram qolları bağlı
divanım qurulur hər gün beləcə

fərmanım özgə dillərdə yazılırkən
mən saz istəyirəm son söz yerinə
başıma alqışlar uçur tökülür
alqış xarabalığının altından
hər yeri əzik-üzük olmuş
son diləyimin tozlu üzü
gülür ölü uşaqlarına vaxtın
divanım qurulur taxt əvəzinə
divanım qurulur beləcə

hər sabah hər axşam haqdan nahaqdan
beləcə mən şah oluram
matlar ölkəsində
“şah!..” bağırmadan

## nəyə inanırlar oralarda bəs

*mərhum yazıçı Namiq Abdullayevin ağı üstündə gecikmiş gileyi*

qor-qor  göz-göz olan könlüm
açılmış yaram kimidi deyirəm – inanmırlar
şövqü yüz yerə bərq vurur
təzə sınmış cam kimidi deyirəm – inanmırlar

dolanda nurla silələnib dolur
haqdan bulur məqamını göz qırpımında
göyə çıxır qərib olur ey qərib olur
yerə düşür xam kimidi deyirəm – inanmırlar

bircə yol fələk də dinmir dindirə
dindirə dərdin söndürə bircə yol
içib kuzəni sındıran bu zalım
bir  ömər xəyyam kimidi deyirəm – inanmırlar

açılır bu baxtsız baca açılır üzünə
küfr ilən çıxır hərraca uçunur eləcə
gəlin gəlin baxın budur
yarıyacan
yanıb sönmüş şam kimidi deyirəm – inanmırlar

tut yasını qara günlüm tut yasını
haqq yolunda zülüm-zülüm dərdi ünlüm
səndən üzü dönən könlüm dönən könlüm
cismimə haram kimidi deyirəm – inanmırlar
nəyə inanırlar oralarda bəs

## vaxtın sirr keçidləri

*Xanəmir bəyə və Ayişə xanıma*

vaxt qızıldı derlər
amma bu qızıl nə topuğunda xalxaldı adamın
nə qolunda bilərzik
o bir tovuz quşudu Can Qəfəsində
qırx çalarından otuz doqquzunun adı bilinməz
vaxt nədisə yürüyürkən
adamın sirr dolu məntiqi bu keçidin içindən ötür
tutalım birincisi giziltidi –  əvvəl o keçir səndən
ikincisi: üşəntidi  –  o da keçir
düşünürsən
imarətlərində daş kitabələrə ayələr döydürən sultan misallılar
sözün basqısındanmı çəkinirlər
ya vaxtın qılıncımı sindirir onları qorxuya
üçüncü: qorxudu – artıq o keçə bilmir cana ilişib qalır
dördüncü: yalqızlıq xofudu
beşinci: yalqızlıqla barışıqdı
bəzən də məzlumun qoynunda cücərir
zülmün arpa-buğdası
amma üzü görünməz kimsəyə əsil əzablının
çünki vaxtın qoynunda haqq hicabında olur zülümlərə girən
altıncı: məzlumluqdu
yeddinci: üzgünlükdü

səkkizinci: sonu duymaq
qürbətdə dərd də kişmiş kimidi
qərib lap şah da olsa
gözdən düşmüş kimidi – çünki  qəribdi
doqquzuncu: qürbətdi – iç səltənətini tanımaq üçün
dərdin nicat qapısı bilib üz tutduğun girdab
onuncu: vidadı – bir özün bilirsən bir yaradanın
on birinci: dözümdü –  özünlə barışa aparan yolun
hər gün udulan tozu
on ikinci: eşqdi
eşq – vaxtın tacında baş lələk
on üçüncü: gül
gül – haqqın könüllərə sancdığı bir tuğdu
on dördüncü: haqqdı
haqq – tərəzini tutan gerçək
o həm də yerdən göyün üzünə tutulan
güzgüdə təcəlli edən ilk və son işıqdı aşiqlərə
on beşinci: imandı – qüsurlu insan beyninin
hələ də tam  həzm edə bilmədiyi ilahi meyvə
qutsallar qutsalı uca söykək də deyilir adına
on altıncı: sözdü – ərmağanlar ərmağanı
sağkən ruhumuzun ipək köynəyi
ölürkən tabutumuza örtülmüş bayraq
qiyamətlərimizdə sığındığımız nuhun teknəsi
on yeddinci: nəfəs – hər alıb verdiyində
fələyin çarxına üfürülən tükənməz gərdiş nüvəsi
on səkkizinci: səs – bizə qədər də bizdən sonra da
gedər-gəlməzin tək yolçusu
on doqquzuncu: savaş – ən qutsalı nəfsə açılanıdı
o içində bir an səngimişsə – məğlubsan demək
yeri gəlmişkən bayraqdan köynək olmur
köynəkdən bayraq olur amma
özü də qana bulaşmışından
qana bulaşmışı ucaldılır fəth günü
iyirminci: fəthdi – içimizi şırımlamış dilək
hər gün bir addım da yaxınlaşırıq ona
hər addımda şəhid düşərək yaxınlaşırıq
iyirmi birinci: şəhidlik – iman məntiqi
ölürkən cismin  suya
canın kəfənə üsyan məntiqi
bu gün gizir Mübarizin düşmənlər üstündə
pəncəsini qaldırmış aslan məntiqi
Sabirin şeirlərindən hər gün özünə dar ağacı quran
çarəsiz insan məntiqi
iyirmi ikinci: üsyan – ən sakit günün baş yazısı
insan ömrü əlifbasının “a” hərfi
əgər adamın özünə yönəlmişsə içdən
varlığın bismillahı da demək olar ona
iyirmi üçüncü: sükut – ən çözümsüzü gözlərdə göllənmişidi
tavana zillənmiş və soyumuş gözlərdə göllənmişi
iyirmi dördüncü: duruluq – o ancaq sevdadan gəlir
gəlir və yalın ayaqlarına həsrətlə baxan

girdablara gülümsəyir
iyirmi beşinci: sonsuzluq – bir əbədi hərləncək
iyirmi altıncı: yolçuluq – hamıya Tanrı buyruğu
hər gedən yüz canlıdan doxsan doqquzunun
haraya səfər etdiyindən xəbərsiz olduğu qutsal iş
iyirmi yeddinci: gərdiş – yelkənini yalnız qiyamət günü
yendirəcək bir gəmi
bu sərxoş gəminin sükanının bir üzündən fələk
bir üzündən yaşam tutmuş
iyirmi səkkizinci: qədər – ölən günümüzəcən
qurumayan mübarək yazımızın
mürəkkəbiylə suvarılmış məntiq
iyirmi doqquzuncu: qavram –
günahlarımıza görə fəzaların tozunu qoparan
ahların istisi deyir onun nə olduğunu
otuzuncu: divanəlikdi – üzüyünün qaşında yazılanın dərki
otuz birinci: mehrdi – sevda özülü
otuz ikinci: şəfqət – istər haqdan olsun istər bəndədən
adamın içinə çilənən qırpım-qırpım bir işıqdı o
otuz üçüncü: heyrət – bütün fanilərin içində rast gəlincə
içini çəkməli tək bircə şey var – onu hər kəs bilir
amma bu haqda  hamı susur nədənsə
otuz dördüncü: küfr –  batilin qardaşı
haqqın düşməni
otuz beşinci: lovğalıqdı – can tarlasında sürülmüş xam yerlərə
səpilən iblis toxumu
otuz altıncı: kin –  sevdaları puç eləyən mürgünə qurdu
otuz yeddinci: qətl – öz əlinlə yazılmış
cəhənnəmin halallıq fərmanı
otuz səkkizinci: önəmli deyil
otuz doqquzuncu: o da eləcə

bunları bilmədən də yaşamaq
ömrün günəşlərinə sərməyə çulu sudan çıxarmaq olar
amma getdiyində
nə sağında bir divar nə solunda bir qapı olacağı bilinməz
nə başını divarlara döyəcəksən nə yumruğunu qapılara
boşluqda qalacaqsan çünki
dibsiz bir boşluqda
bir sən olacaqsan bir itirdiyin vaxt
vaxt – o bir tovuz quşudu Can Qəfəsində
orda doğulub orda  da  ölər
qırx çalarından otuz  doqquzunun
adı bilinməz beləcə

qırxıncı:  əgər vaxt gedibsə
ölümdü doğumdu nədi
fərq etməz artıq

## GÜL TİKMƏSİNDƏ İLMƏ ÇÖZÜMÜ

### 1. yaranış ilmələri

hücrədə alatoranlıq hücrədə  kölgə kimi yıxıq vücud
səcdədə sidr qoxulu yeddi təmasın cezbi
beş ləçəkli Gül duası - vaxtın sirli ovuntusu
hicranlarda bir Gül yeri, Gül yerinin istisi
heç vaxt ilməyə gəlməyən yalqızlığın heyva rəngi
ağrının qətliyamına zorlanan ruhun məkanı
tikmədə can canda boşluq boşluğun gömgöy soyuğu
sözə cidarlanıb qalmış miskin sonun boş fürsəti
nəfsin vurulmuş boynundan asılmış ölü ehtiras
tikmədə Gül  Gülə heyrət heyrətdən tutulmuş dilin
mübarək «ol!» kəlməsinə tükənməyən titrəyişi

**2. ölüm ilmələri**

havada boş öpücüklər havada quş tükü yalqız
ağrıları götürən su ölümdən öncəki dilək
gözəl qiyafətlər cadulanmış vücudlarda soluq-soluq
dikəlməz yaş kəfənlərdən yulğunların qoxusu artıq
sınıq bir gül budağında iki quş qanad-qanada
boynu bükük afətlərin şəklini soldurur zaman

ağrılar can uçağında ölüm çəkisizliyə varmada
gözün qulağın ürəyin sorğuları başlanmada
sınıq gül budağındakı iki quşdan biri uçmuş
havada heç nə heç nə havada  quş tükünün boş yeri
boynu bükük afətlərin şəkli kimi zaman soluq
bircə  salxım yasəmənlə qurumuş bir insan nəfsi
boş qalmış can məkanında sonun məhrəm rütubəti

**3. yaddaş ilmələri**

canda yaddaş yaddaşda toz basmış güzgü
güzgünün tozuna yazılmış boynu bükük bir kəlmə söz
yaddaşda gənc bir ana bəxtinin ləçəklərinə
beşikdə ağlayan çocuğun şeh  kimi çilənən səsi
canda fələyin qara sevdalarla ölçdüyü
qəflət yuxularının sonu bilinməz uzunluğu
yaddaşda doğmuş ayın aydınlığına dartınan suların canı kimi
canı əzablara dartınan bir aşiqin haqdan gələn yalqızlığı
yaddaşda xoşbəxtliyin fani görkəmindəki çamur sıyıqlığına
«gəl, keç» işarəsiylə başlanan ölüm yürüşü

**4. eşq ilmələri**

canda bütün ilmələr Gülün nəfəsiylə çözülür
bir hal sorğusundan bağrının içi uçuqlayır qafilin
ilməsindən göz yaşı damır çözüm anı gəldiyində
canda aşiqin halı bir  başqa
tikmədə ilməsi bir ayrı
sona varınca hər ilmə bir çıraq olur gorunda aşiqin
canın saleh diləyinə eşqin işığı gordan da gəlir
Gülün nəfəsindən o yana yolu olmur səsin canda
sonda eşq varsa gedər-gəlməz qapanmış demək
səs də söz də ruhun yükündə Gülün nəfəsinə dəyib qayıdır
əzablardan oyadır aşiqi ölümsüzlük yağmuruna
olmuşlardan qaldırır olacaqlara qafili
səs də söz də qayıdıb qonunca dodaqlara
eşqi Gül qoxulu şükranlar sarır tikmədə
canda bütün ilmələr gülün kərəminə bağlıdı çünki
Gülün kərəmindən yağır ölümsüzlüyün yağmuru
ölümsüzlüyün yağmuru dirildir aşiqi eşqə

**5. halallıq ilmələri**

sona varan durdurulmur üzünə baxmırsa qədər
havada yalqız quş tükünün yerində gömgöy sükut
canda haqqın sorğusuna ilməsi qaçmış cavab
canda yaşanmış bir fani günə verilmiş halallıq kimi
bir çocuğun ilməyə gəlməz çiliklənmiş gülüşü
gülüşdə qeybə aparan canın rəhmət dolu işığı
tikmədə son ilmə
tikmədə gecikmiş zühurun ağappaq yolu
yolda can
canda Gül
sönmüş nəfsin bomboz külü

**6. iman ilmələri**

canın küləktutanında sözün qapısı taybatay
mizanda  gül ləçəyinin mislinin çəkisizliyi
keçən günün kətan boyu axan ölgün boyaları
açıq qalmıış bir cüt gözdə göllənən nurun imdadı
divarlara mismarlanan sükutun çarəsizliyi
aşiqliyin məqamında əzablara asilərin
dərgahlarda bükük boynu sökük bağrı boş əlləri

**7. qiyamət ilmələri**

qırxillik gurşad kəsilib sur dinir sonuncu kərən
suları yıxan alovun üstündə atlı kölgəsi
müjdələnmiş aşiqlərin başlanan ilk ziyafəti
burulğandan düşüb gedən minillik gor sakinləri
sağ əldə əməl dəftəri baqi ömrün yiyələri
şair sözü söz şairi ana balanı tanımır
batil bir ömrün yiyəsi su deyə-deyə yürüyür
cırılmış əməl dəftəri sol əlində  parça-parça
çırpır kəfənin tozunu həşirin sonsuzluğuna

tikmədə qum dənələri hər zərrədə boş bir fəza
hər ilmənin çözümündə çırpınan qanad səsləri
sonuncu qırıq ilmədə sonsuz üzgün bir uğultu
hərdən görünüb yox olan o Tək İşığın haləsi

## zühur

onlar qayıdacaqlar deyirsən küləklərdə ya tufanlarda
«biz keçdik və cəhənnəmi sönmüş gördük...»
tüstülərində kabuslar səngimiş bir yaz çılğınlığıyla
çiçəkləmişdi yeri əzabların

onlar qayıdacaqlar deyirsən çiçəklərdə ya xəzanlarda
«biz keçdik və cəhənnəmi sönmüş gördük...»
susmuş fələyin sınmış hərləncəyindən düşüb gedən
bağışlanmışların təntənəsinə
zikrin tül örtükləri əsirdi yamyaşıl
dinclik dinclik dinclik
ibadətlərin antologiyasına oxşayırdı
varaq-varaq çevrilən göy qatları
daha nə rənglər yeddi çalar
nə sonsuzluq yeddi təbəqəydi
sonuncu kitab kimi öpülə-öpülə örtülürdü olmuşlar

onlar qayıdacaqlar «biz keçdik…»
arxamızca sönmüş girdabların külü də tərpənmədi heç
onlar yarıtüstü yarıbuxar sayağı
boz kölgələrdə oynaşan hallardan sıyrılaraq
quş səslərini axtarırdılar – şırnaqlarında çimib
qüsl almaqdan ötrü
çünki boş keçmişlərin olmayan dünənlərin
yalançı sabahların divardakı mıxçada yellənən
boş çərçivədən başqa bir şeyə oxşamayan
adına zaman deyilən çirkin surətin
gözlərini qapamışdılar əlləriylə
qoynunda göz yumduqları
anlaşılmazlıqlarla dolu
sonuncu dünya təmaslarından
nəfsləri cənabətdəydi bəlkə də
udulmuş havanın içilmiş suyun halallığı verilməmişdi hələ
alınmamışdı həzzin halallığı
«keçdik və cəhənnəmi sönmüş gördük…» ifadəsi o qədər pak
o qədər pakizə idi ki
əslində köhnə qramafon valının pozuq yerində ilişmiş
iynə sayağı dərinə işləyə bilməyən günahlar
bağışlanaraq indi fanilərdə qalması ilə sancıldıqları yerdəcə
yaşıl qələmələrə çevrilirdilər
canın möminliyindən saçılan işıqların içilməsini bildirən
hər nə vardısa daha yuxu deyildi
əbədi yuxusuzluq deyilən dinclik idi

onlar qayıdacaqlar deyirsən gerçəklərdə ya gümanlarda
«biz keçdik və cəhənnəmi sönmüş gördük...»
gerçəklər gümanlar
yeddiqardaş ilan kimi biri-birinə sarmaşaraq
əslində canın özəyindən səslənirdi axirətə sarı
artıq yarıya qədər fəzaların tutqun tozundan

yarıya qədər nurdan yoğrulmuş
ətrafdakı yaşıl suları dalğalandıraraq qalxan
titrəyişində getdikcə çamurlu yosunlu bir
aləmdən sıyrılmaqla
baqilərə saçılırmış kimi üzü nəhayətsiz
sahilə doğru atılan ilk addım gözəl düz və məsum idi
bu ZÜHURdu və «cəhənnəm sönmüşdü… »
ilk izlərin düşməsi və ilk səslərin tərpənişiylə
ilk sözlərin havası oynayırdı boşluqlarda
bu məqama qədər ruhi çırpıntıların
bizə məlum olmayan hər anının bəlkə də yüzdə birinin
mində birinin ən miskin ən soluq
görünüşü beləydi

amma «biz keçdik və cəhənnəmi sönmüş gördük…»
onlar qayıdacaqlar deyirsən diləklərdə ya amanlarda
ruhun ucalardakı təvafı sona yetincə
şeirə bənzər nəsə gəlməliydi – gəldi də
amma  hələ əsib gələn olsa-olsa
şeirin ilk misrasına oxşar bir budaq söz saçağıydı
bu bir mehdi sanki
şair  ona verilmiş bu ilk misraya oxşayan sehrin önündə
bu an yıxılıb ağlayıb toxtamış bir çocuq durumundaydı:
bir çocuq yıxılıb ağlayıb doyduqdan sonra
ona göndərilmiş sərin bir mehlə
diz qapaqlarındakı sıyrıqların qaysağı öpülürkən
ilahi bir dincliyə qovuşaraq
təskinlik tapıb içini çəkdiyi anda
özünü necə hiss eləyirsə
şair də o sayaq yaşantılar sürürdü indi

«biz keçdik…»
ilahi sürətlə keçdik bir-birimizin yanından
keçdik və «cəhənnəmi sönmüş gördük…»

# yaşam çözümləri

...yaşam o qədər adiləşib ki
ölüb gedənlər elə bil dünyadan getmirlər
başmaq seyrindən qayıdırlar qeybə...

**YURDDAŞ**

**1. dodağında dua əvəzinə saman çöpü**

bu milyonlar milyonçular səltənətində
kül rəngli qarsımış üzünü
bir dəfə də olsun çevirmədən zalımlara
haqdan amanda olduğunu yazaraq yapışdırmadan divarlara
meydanlarda «mən sizinləyəm!» deyərək bağırmadan
içdən gələn bir səslə «biz də ölmərik!» deyirdi yurddaş

itirilmiş torpaq dərdindən can dərdindən
önə keçmiş olan çörək pulu dərdinin irinləmiş ağrısıyla
şəkil çəkdirirmiş kimi qol-boyun
gülümsəyirdi əli fırçalı gərdişin üzünə
«çək!» deyirdi

amma bu təkəbbür deyildi əsla
zamanında açılmış şilləydi bəlkə vaxtın üzünə
cingiltisindən öz qulaqları batmışdı
yuxarıdan aşağıdan heç bir səs çatmırdı ona
lələkləri yonulmuş quş kimi
çırpınırdı içində ləçəkləri qopmuş həyat
umanlara bağışlamalıydı onu
çocuqlarına məsələn qadınına
amma necə
sevilmiş oxşanmış lənətlənmiş həyat
qıyılmış gözlərində o qədər sısqa o qədər cılız idi
torpaq olsaydı heç bir qəbir də sığmazdı qoynuna bu dəm
amma torpaq deyildi – həyat idi o
qoynunda şəkil çəkdirirdi yurddaş
dodağında dua əvəzinə
saman çöpü vardı qafilin
«çək!» deyirdi elə

## 2. aclığa şükranlar

götürək elə qışı
qar basmış sabahlarda
dörd bir yana qırma kimi çovuyanda sərçələr
aclığın sazaqlardan keçən yolu
görk olurmuş kimi açılar üzünə bütün görünüşüylə
keç indi görüm necə keçirsən deyər öz-özünə
«Elə isə Rəbbinizin hansı nemətlərini yalan hesab edirsiniz?»
deyə soruşar

ölümün fəhmini anlamadan
bıçaq tiyəsi kimi dirənəndə gərdişə
ondan nəyə bel bağladığını sormasan daha yaxşı
o bilməz də əsla
gözünü yumub gedər də dirənişə
ruhunda balta yarası kimi
övlad səsindən qadın hönkürtüsündən çapıqlar
öl indi görüm necə ölürsən deyər öz-özünə
«Elə isə Rəbbinizin hansı nemətlərini yalan hesab edirsiniz?»
deyə soruşar

yarası su salar hər dəfə əliboş dönürkən geri
hamıdan ötüşdürər öyrəncəli gözlərini
təkcə hənirini alınca
körpə qızı gül ləçəyi kimi yerindən qopub da
üstünə uçanda
dilinin altında gəzdirdiyi ürək dərmanı kimi
o Üç Böyük Adı udar dalbadal
amma keçməz boğazından
udquna-udquna qalar
gücü çatmaz «gəl, anam, gəl...» deməyə
«boğuldum...» deməyə belə çatmaz gücü
yaylıq çıxarıb qupquru yanaqlarını silər çocuğun
öz gözləri islaqkən

«Elə isə Rəbbinizin hansı nemətlərini yalan hesab edirsiniz?»
deyə soruşa bilməz artıq
deyə də bilməz öz-özünə döz indi görüm necə dözürsən
islaq kiprikləriylə yazar sazaqlara şükranlarını

**3. əbabil quşları**

düzü-dünya daşla dolu neylərsən artıq
dua üstə əriməzsə bircəciyi belə
əgər hər şey axarındadırsa
bu basılmaz qalaya yurddaş
bir fil təhlükəsi yoxdursa
yəni bu isti suçsuz ocağına qafil
yəni yanılmaram söyləsəm
nəsil imperatorluğuna sənin şahlığına yurddaş
yəni fəqirliyinə məzlumluğuna deyirəm
şərəfinə aşiqliyinə gülünə qafil
yoxdursa bir fil təhlükəsi
o zaman bəs
tezliklə göylərdə əbabil quşlarının görünəcəyini
kimlər söyləmiş sənə
caynağında daş olacaqmı demişlər dua üstə
kimlər söyləmiş odsuz atəşsiz savaşın
buzu çatlamış göylərdən başlayacağını
kiminçün dolaşırıq deyirsən səngərsiz Çöllükdə atsız
əlimizdə boş yüyənlər deyirsən kafirlərlərə sarı
qopmuş nallar deyirsən möminlər dua üstəykən
yaş qumlardan tikilmiş ehramları
uçura-uçura kafirlərə sarı
o quşların lələklərinimi gəzirik indi Boşluqlarda

deyirsən
uşaqlığımızın korluğu sindibadlıqdan o yanı görmədi hayıf
gəncliyimizin korluğu məcnunluqdan o yanı görmədi
bu yaşın da korluğu zahidliklə çıxır işıqlığa guya
ölümün korluğundan nə görünür bəs
pıçıldamazsanmı dua üstə

belə getsə kafirlərə sarı
nəslimiz kəsiləcək yurddaş dua üstə
fərari oluruq haqq ordusundan kafirlərə sarı
düz deyirlər əbabil quşları gələcək əbabil quşları
üfürülmüş vücudumuzdan başımızın böyüklüyündən
filə oxşadacaqlar bizi dua üstə
düzü-dünya leşlə dolu olacaq kafirlərə sarı
neylərsən artıq

**4. işıq sınıqları**

qaş qaraldı
ömrümüzün
fələyin çarxına dolaşaraq səsini çıxarmadan ölmüş
bir günü də beləcə sürüklənib getdi

köhnə düsturların
yazılı yazısız təkrarında görünən eyni gələcək
uçuq dəyirmanların yerində
kabusa çevrilmiş eyni keçmişə oxşayır

alatoranlarda pırıldayaraq boz ayın çiskinli sinəsinə
qanadının ucuyla «artıq yazdır!» yazan
o quş da eynən ötələrdəkidi

hər gün eyni duz eyni çörək eyni iştah
hər gün eyni sevda eyni dua eyni ölüm
eyni aqibət eyni gor eyni gorgah

günün sonluğuna atılmış imza da
alnının möhür yerində eyni cürdü
könlünün gül yerində eyni cür

amma bir quşun nəfsi
bir buluddan o yanı istəməz iddiasına inanma artıq
insan nəfsinin cıdır açıb at oynatdığı yerlərdə
küfrə batilliyə haqq qazandırmaq kimi bir şeydi bu

hər gün eyni sözü eşitməsəydi qulaqların qafil
danışmasaydın eyni dildə
dilə sözə möhtaclıq ucbatından
kim bilir qara başın
daha hansı qapılarda alnını söykəmişdi yerə

hamının hər gün eyni rəngdə gördüyü işıq
suyun dibindən baxan bir balığın
qaralmış mirvari dənəsinə oxşayan gözündə
yəqin yeddi rəngə çalır yenə
eləcə işıq sınıqlarıyla oynayırsan sən də
içəridən baxa-baxa
«qismət... qismət...» deyə-deyə
ala-bula görə-görə gərdişi
inana-inana hər gün eyni sevdayla
əlin qaşının üstündə eyni hicranı çəkirsən

amma qaş qaraldı qafil
ömrümüzün
fələyin çarxına dolaşaraq səsini çıxarmadan ölmüş
bir günü də beləcə sürüklənib getdi

eyni cam eyni su eyni surət
eyni işıq sınıqları
eyni Eşq eyni Həsrət
eynən dünənki kimi
qafillik və kor bəsirət
qamçı və milçəyini qovan at quyruğu

## göydələn dilək

çöldə ac qurdlara can verən bir yaban qısrağının
son kişnərtisini udmuş göy üzünün təmkiniylə
( amma əslində təkəbbürlə) indi bizə baxan
və hayqırtılarımıza susan yer üzünün səltənətlərinə
ay doğmaz içimizdən əsla

ona görə yox ki daim gülümsər sükutlarının
aynasına çatmır atdığımız daşlar yox
üzgünlərin Yalqızlığından doğmuş
bir həqqanilik tərbiyəsidir bu çünki
butası haqdan gələn
bir mürşid təlqinidir bu hökm
fərqində olmasalar da

söz yox məsələn biyabanlarda
yulğunları və süpürgə çalğularını
yun kimi çırpanda çöl küləkləri
isti yatağında xanımına qısılmışların yuxusuna
tufanlarda alaçığı yıxılmış divanələr girməz

əsr-əsr təzələnən
zaman-zaman köhnələn bu mesaj
miyanələrə və vecsizlərə
kübar sifətlərindən yağ damanlara
göndərilmir yox
bu bir göydələn diləkdi sadəcə
çamurluqlar üstündə dikəlmiş haqdan

fərqində olmasalar da
bilirlər onlar
qaranlıqda qalacaqlarını bir gün

**çəkmək istədiyim «öpüşən göyərçinlər» rəsminə proloq**

bu həmən meydandı
88-də «azadlıq!» bağırmaqdan
xəzərin döşünü qançır eləyən səsimizin
qurğuşun kütlüyü və ağırlığı
axırda özümüzə qayıdan meydan
o zaman göyərçinlər yox
aslanlar gəlirdi fırçalara
çəkə bilmirdik amma

indi
öpüşən bu bir cüt göyərçinin
qələbəliklərə zillənmiş ürkək gözlərinə
durub maddım-maddım baxırkən
təvəkkül dolu bir şükran duasının
dodaqlarımızda yeri görünür sözsüz

dilini bilmədiklərinin bunca ibadətlərində -
yəni quşların daşların ağacların
daha nələrin və nələrin zikrlərində
insan öz könlünü imam görüncə
haqqa bir boy da yaxın olur

amma bu ibadətdən sonra
içimin löhrəmlərində elə bir səssizlik ki
qu desən qulaq tutular sonsuzluğacan
bu bir barışmı
ya yeni fırtınaların proloqumu görən

hər şeydən öncə
illərin sükanını əlindən buraxmış
çaşqın bir sürücü durumunda olan
vaxtın ağrılı başı dumanlardan sıyrılınca
yəni mən bir şeiri bitirənəcən
Yalqızlıq və Kimsəsizlik
az qala xəmsəsini yazdı içimdə

indi öpüşən bu bir cüt göyərçinin rəsmini çəkmək
əlində nədi ki onların -
Aşiqliyin Böyük Mürşidlərinin -
Yalqızlığın və Kimsəsizliyin deyirəm
təki meydan olsun içində
ruhunda kətan bəyazlığı olsun
bir də iman
fırçasına aslan da gələcək o zaman
göyərçin də adamın

## mücadiləsiz bir udum hava

yaddaşın qaranlıq dalanlarında
dumanlara girmiş bir fanarsayağı
közərməsəydi anıları bəzi günlərin
öləziyən  işığıyla içinə ay doğurmasaydı
unudulmaqda olan çöhrəsi bəzi adamların
geriyə qanrılmadan  bir ah çəkməklə
bitmiş bilərdi adam ömrün mücadilələrini

qumaş örtükləri altında nələr  gizlənir zamanın -
xonçasında nələr aparır gərdişin axsaq sükutu
hər dəfə hiss edilmədən
toy səsi harda dönüşür vay səsinə
ciyər qanıyla harda bəslənir şübhələr
içərilərin qapıları taybataydısa haqqın üzünə
harda baltalanır ümid dediyimiz can tutalğacı

bütün bu soruların
cüzamlı üzünə baxmaq belə istəməzdi  bu gün
bir udum havanı maneəsiz udduğuna
şükranlar edən adam
çünki doğrudan da  o n u n  üçün
yaşamın mənası  o n d a d ı r  yalnız

## bilən olmadı kimsən

bir şeirlə də olsa
bu yazın pəmbə çiçəklərinə sürtdün içinin  qanını
amma yenə bilən olmadı kimsən nəçisən

hər dəfə yaşama dair
su bulandıran yeni bir şübhə
onun bulanıq suda balıqlıar arayan
üstündə «qəddar!» kəlməsi döyülmüş amansız əlləri
və sona bənzər qarabasmalarla açdığın üzgün savaşlar
kölgələdi səni

əslilərin sovrulmuş külünə şərqilər qoşan
sərsəri  bir aşiqin qara günündə
kərəmlərin köynəyindən keçirilir
yaxşıların baxtı demə

hər sualı cavabsız qoyan gərdişin
çocuğu olmaqdansa
yer üzündə ixlassız nə varsa
hamısından üz çevirən zahidlərə sıxılır
gülləri zamanın

faniliyə kargüzarlıq yapmaqla

boşuna mesajlar göndərdin söz bazarına
bu yaz da bilən olmadı kimsən

## alıcı quş qisməti

bir nəfəs dəyir üzümüzün işığına duyğusuz
bütün rüzgarlara qarşı soyuduğumuzu bilirik artıq
şükür nəfsin qırılmış kələfçələri
göz görkü deyil adımızın üstündə
çünki heç vaxt şahinli göylərə
göyərçinlər uçurmadıq bilərəkdən

bir nəfəs dəyir üzümüzün işığına duyğusuz
bütün hallarda bilirik artıq
geriyə qayıda bilməyəcək əski bumeranqlar
artıq xülyalarda işıq eşqiylə
qara şuma nar dənələri səpən vaxtımız
keçibdi çoxdan

bir nəfəs dəyir üzümüzün işığına duyğusuz
kirpi yuvasıdı başımızın içi düşüncələrdən
didik-didikdi canımızın səbrinə zorlanan ağlımız
duyğusuz olmasaq da
sayğısız da deyilik qədərə qarşı
indi deyə bilmərik
qanadları göy üzü qoxuyan
amma ölümünü boz düzdə
bir qaratikan koluna sancılaraq qarşılayan
alıcı bir quş qisməti varmı yazımızda
ya yox

bir nəfəs dəyir üzümüzün işığına duyğusuz
müxalif-segah üstə büdrəmələr
bir yaşam normasına dönür anbaan

## ah bu mənim şəhərim

*Ana beşiyim Şamaxıya bir çocuq sevgisiylə. Mən onun küçələrindən, dalanlarından çox dağlarını, daşlarını, çöllərini, çaylarını sevdim. Tər sözün qədrini bilən İnsanlarını sevdim…*

ah bu mənim şəhərim
nəhs bir ulduzun altında doğulmuş
zaman-zaman tifağı dağılmış şəhərim
can çürütdüyüm qürbətlərin acığına
ömrümün sarayını
yarıxəyal yarıgerçək səndə ucaltdım

bildiyim budur:
Bəzirgan düzündə dizlərini tikanlar dalamış
yarpız qoxulu rüzgarlarının ufultusu
canımda daşınacaq ölənəcən
bir də Uruzlar çayında intihar etmiş uşaqlığımın
Böyükağa bağının viranlıqlarında sızlayan kabusu
həmişə axtaracaq məni

bir söz sonbeşiyi kimi bu rəzil pıçıltılarımın
Sarılıqdan o yana keçməyəcəyinə əmin olardım
amma haçan ki
bardaqda təngə gəlmiş su misallı bir can
duyur külbəsində çarəsizliyini
könül yerə qoyur bari-həmlini misra-misra
sınırlar dağılıb gedir

hər kim
uşaqlığının bircə yaz gecəsini də olsa
Sarıtorpaqda
üzü alma boyda ulduzlara sarı uyumuşsa
o adamın
göylər ladında nəsə pıçıldamaması mümkünsüz

odur ki
ad daş üstə
tən torpaqda
ruh göy üzündə necə üşüyürsə
hərdən eləcə yalqızlığını duyur könül
yerə qoyur yükünü misra-misra
dağılıb gedir sınırlar

ah bu mənim şəhərim
şərəf damarından zaman-zaman qanı sorulmuş
ölüb sabaha qalmış adına
ala-pala yamaqlar vurulmuş şəhərim
bu gün adın
böyük oğullarının ruhuna ağı kimi səslənir

tərpənə-tərpənə çökən tarixinin
fəryad dolu qoynunda
sümbülü çoxdan saralıb dərd zəmilərinin
biçənə minnət

gözəlləşmisən maşallah
«bu şəhər abadlıq götürmür»
demiş dədələrimiz (qulaqlara qurğuşun!)
«biz biri-birinin xarabalıqları üstündə tikilmiş
yeddinci şəhərdə yaşayırıq»
deyərdi atam da (sonuncusu olsun!)

amma bunlardan yana
bir çocuq qırx beş il əvvəl
çayqovuşanın gümüşü daşlığında
necə durmuşsa ayaqyalın
eləcə baxır bu gün
keçmişin günəşli pəncərəsindən
belləri yəhər görməmiş atlar–
görünüşcə dünyanın ən faili-muxtar canlıları
ovalıqda hürr bir şəkildə otlamaqda
lığda yuva quran qarabattaqların
dünyadan xəbəri yox
bildirçin xoruzunun fərəsini səslədiyi çətənəliyə
hələ təpilməmiş bir ov tulası -
bir çöl heyvanına qarşı o an
bir ev heyvanı xəyanəti yaşanmamış yəni hələ
balıq sulardan bezəndə
quruya necə sıçrayırsa
eləcə çırpınır könül o çocuğun kimsəsizliyində
asır kipriklərə daşıdığını damla-damla
və çökdürür sınırları
beləcə başlanır canla məkan arasında
«öldün?» - «ölmədim!» oyunu

sənə sarı
şırran-şırran bir türkü yuyur aynasını yaddaşımın
heç vaxt oxunmamış bu türkü
gəl dalımca deyir:
    - təngə gəlmiş su bardaqda
    can külbəsində çarəsiz
«öldün?» deyir «ölmədim, yox!»
    söz saralmış varaqlarda
    qafil səsində çarəsiz
«öldün?» deyir «ölmədim, yox!»

    köçmən quşlar köçən vaxtda
    oxuyur kor alabaxta
    ad daş üstə tən torpaqda
    ruh göy üzündə çarəsiz
«öldün?» deyir «ölmədim, yox!»

atlar otlar ovalığda
ördək  qurar yuva lığda
quruya sıçrar balıq da
sudan bezəndə çarəsiz
«öldün?» deyər  «ölmədim, yox!»

tozu silinər güzgünün
görünər sənə öz günün
yumub gözündə özünü
susarsan sən də çarəsiz
«öldün?» deyərsən  «ölmədim!» - deyərəm

beləcə başlar aramızda
«sağsan?» - «hə!»
«mən də sağam!» - «şükür!»  təsəllilləri

ah bu  mənim şəhərim

**HAL**

**1. ölümün çiyələyinə sarı**

ölümü ən azı bir çiyələk bilib
ona sarı iməkləyəndə
bir çocuq məsumluğu
olmasaydı aldanışında adamın
işığı sevgilərə yaşarmış üzünü
hara çevirərdi qaraçuxası

sükutun çöhrəsindəki gözəlliklər
sözlə çimizdirilib bələnməsəydi səsə
əvvəl birinin adına layla
sonda birinə ağı deyilməsəydi
canın soyumuş beşiyi başına
göyərçinlər qonduran nə olardı bəs

guya ölüm var deyə
can sevgidə heç nəyə yaramır deyənlər
bilirmi görən
o zaman ölümün çiyələyi
qəpiyə də dəyməzdi Can Bazarında

əslində
min yuxu bir gerçəyin
soluq əksi də deyil aşiqlərə
gerçəklər bu qədər acı olmasaydı
yuxular bunca şirin olardımı heç

**2. ölümümə qanad çalan bir qumru**

qulpundan çıxan nə varsa
göyün üzündə sərgiləmiş gecə
ən baxımlısı Ağ Yoldu –
çəkilmiş sonuncu ahın
böyüdülmüş neqativinə oxşayır  o

ölümümə qanad çalan
bir qumru tərpənişi var
başımın üstündəki hər şeydə

gecə yarıdan keçmiş artıq
ağacların başucunda
qanadları salxaq yorğun bir meh
yıxılmaqdan özünü güclə saxlayır

ölümümə qanad çalan
bir qumru tərpənişi var
döş qəfəsimin altındakı hər şeydə

bir azdan sabahı açılacaq bu şəhərin
dan çağının alatoranlığı
boş səkilərdə dəngil-düngül addım səslərindən
qorxmuş kimi
yaxasında sərxoş səfillərin yuxusu
sahil sularına çırpacaq özünü

ölümümə qanad çalan
bir qumru tərpənişi var
suların sehrindəki hər şeydə

## 3. işıq ili

aradan neçə işıq ili ötdü görən
üzü işıqlığa çıxanacan adamın
neçə sərgərdan işıq ili qoparıldı
onun Can Təqvimindən
mən bu fikirləri
canımda körükləyirkən
qapıya xlorsatan gəldi:
- xlor var xlor
ülgüc tiyəsinə oxşayan bu səsin üstüylə
eşiyə çıxdım sızlaya-sızlaya
mənə baxdı qocaman gözlüyünün arxasından
bic-bic gülümsəyib başını buladı gərdişsayağı:
- şair sənin mənə borcun nədir bilirəm
bəs mənim sənə borcum nədi – dedi
- işıq ili – dedim göz vuraraq
üzü işıqlandı qocanın
əliylə məni içəri ötürüb
örtdü qapını üzümə
fələyin üzünə təzəcə qapanmış
yeni bir işıq ili kimi
örtüldü qapım

**anın fəthi**
*şeirlər budağından örnəklər*

meh əsdikcə yıxanır çaladakı suda
səhər günəşinin bir qızıl tabaq misallı surəti
çalanın yanında balalarıyla oynayan pişik
gözünün ucuyla da olsa baxmır ona

heç bir məna aramır
pəncərədən gözlərini onlara zilləmiş yuxulu insan
bu sabah ilahi ahəngin fəthi belədir sadəcə

* * *

dumanlarda bir işığın közərməsi üzgün
doluxsunması bir qəribin  qürub çağı eləcə
amma nə olar görən yıxılmışlara ağlarkən
vidalar başlamasa  haqq olan hər şeyə
bu zaman adam bilməsə daha yaxşıdı
ürpənən nədi aynanın o üzündə

*   *   *

nağıllardakı ölümün içində
başımızı sevdalara tutan
kökə də vardı ana da  vətən də

leysanların kiridiyi yerdəki nəm sükut
güman yerinə oxşamırdı görkəmiylə
mələk qanadlarının çəkdiyi işıq zolaqları
unudulmuş bir yuxunun içində quruyurdu
sonun görünməzliyində açılan yelkənlər
hələm-hələm yüklənmirdi ahlara
körpəykən içindən buxovlanmış uşaqlar
başı aşağı yürüyürdü çamurlarında zamanın
kökə haqda deyil
ana haqda deyil
vətən haqda deyil
elə bil daha çox ölüm haqda düşünürdülər
özləri də bilmədən
üşənirdilər nağıllardan
böyüklər kimi

* * *

leyləklər yuvasızlıqdan köçmədi
köçmənlər həsrətdən getmədi son baharda
rahatdı payız budaqları buralarda hər kəsə
göylər rahatdı şeir pıçıldamağa

zamansızlığa doğru
ölümün içindən qol-budaq atır
yaşam çiçəkləri bilməzə

zaman dörd ünsürdən biridi canda
eləcə dörd divardan biri olmasa
heç vaxt damı-tavanı olmayacaq
bu odanın

*   *   *

qocaların üzülmüş kölgəsindən
sürülmüş torpağın qoxusu vurur
sərxoşluğu budur anın

kimin qiyafəsində kişnəyir zaman
kimin ölkəsində görən

vurulmuş adamlara
lütfü yox otun gülün belə
adamlar gözdən düşür
iri addımlarla
ağır damlalarla

rahat yumşaq bir hal almış elə bil ölüm
az qala
su versən içəcək gülümsünərək

amma üzgün kölgəsindən qocaların
sürülmüş bir ömrün qoxusu gəlməyəndə
gözünü yumub ölənlə öləcək o
ölümün nə olduğunu soruşanda güləcək eləcə
bilməyəcək əcdadları kimi nə desin o an

* * *

adamın gözünü qamaşdırır
bu quşun oxusundakı buğda sarısı
bu çocuğun iddiasındakı ağrı da eləcə

möhləti yoxdu keçən günün
ömür dedikdə
əhdin üzgün canına ağlayır vəfa
gümanlar köklənir dərkolunmaza
quşcuğazsa oxuduqca oxuyur
gözümüzü buğda sarısına
tutduğundan xəbərsiz

əlimizdən dartıb aparan zavallı çocuqlardan
“hara gedirik?” soranda “ucalara!” deyərlər
“ucalarda havamı var, a bala,
boğulmağamı gedirik?” dedikdə
qulaq asmaz yavrucıqlar
gülərlər

möhləti yoxdu keçən günün
ömür dedikdə
əhdin üzgün canına ağlayır vəfa
adamın könlünü yox
gözünü qamaşdırır sevda
çocuqların iddiasındakı ağrı da eləcə
göstərir üzünü hər bir anın aynasında

*   *   *

anın fırtınası hardan başlayır
fırtına hardan başlayır əsməyə

yumurtanın içində
hələ cikkildəməmiş ətcə balanın
qabığı döyəcləyən
dimdiyinin ucundanmı başlayır

fırtına hardan başlayır axı
tozlanan çiçəyin  bir arı neştəriylə
ilk təmasının cəzbindənmi başlayır

susmuş insan gözlərinin giləsindəki
çözümsüz işığın çarəsizliyindənmi
hardan
hardan başlayır bəs o mübhəm coşqu
harda susur

* * *

bükülәndә bilәyi cani şübhәlәrin
qatil qeybәtlәrin güllәlәr sıxılanda alnına
özünә qurduğu dar ağacının altında
bağrı çiçәklәyir qәfil
azad olduğunu dәrk elәyәn üzgün adamın

atardamarında çilik-çilik
bir ölüm ritmi vurur günәşә

mәhrәm öpüşlәrin
istisi qurudur alnının soyuq tәrini

o ölüyә tay
o yığvalsız
o әzvay dediyimiz adam
bir cani şübhәnin
bir qatil qeybәtin
kürәyini yerdә gördüyü an
qasırğalardan çırpına-çırpına ayrılıb
ilıq bir gilavarın qucağına girәn
bir ağcaqovaq bәxtiyarlığı yaşayır sanki

*   *   *

sən qəribkən dünya virandı
yağmurlar gurşadlar nə qədər yağsa da
qəriblikdə dirilənə oxşamır
üstünə ölü torpağı səpilmiş anlar

buxağından yaz küləyi öpmüş pəmbə buludların
qübbədə bəxtiyarcasına dolaşmağına baxma
onlar
fani  marş-yürüşləriylə
bu çölün düzündəki biçarələrin
gəzərgi hallarına oxşarlar həmişə

dualar həm eşqə aparır həm eşqdən
ölüm həm yaşama aparır həm yaşamdan
Haqqın arısı da bizdən vəfalıdı quşu da
amma bilmərik ki O
hamıdan çox bizə bağlıdı əhdində
istər göyün üzündə ol
istər çölün düzündə hər an
istərsə də  öz elində obanda ol
dünya virandı sən qəribkən

*   *   *

sinələri altında qanlı döyüntülərlə
elə bil davullar çalınır sinclər vurulur
sürülür ahların kotanları
könül səltənətində qəriblərin
şumlanır yığvalları
dən yerinə səpilir ələmləri ələm üstən
şeirlə biçmək olmur qəribliyin tarlasını
şeirlə keçmək olmur qürbətin fəthindən
şeirlə yalnız can yüngülləşir
bir də uzaqlar titrəşir şeirlə
dan yerini kipriklərin arasında sıxdığında

* * *

özünüzə bir təsəlli verin bu an:
hesab eləyin bu axşam partlayan
eşq dolu bir ürək deyilmiş
fələyin sobasında
qovrulub çat verən bir şabalıdmış
içinin buxarından barmaqları yanırmış iblisin

özünüzə bir təsəlli verməklə
sükunət heç kəsi öldürməyəcək
eşq qazisinə çiçəklər bağışlanacaq bu gecə
ətri ana qoxusu qədər məhrəm olacaq onların

başınız üstündə iblisin sınmış bütü yıxılmışsa
demək zikrin tufanından
qaçdığı gündü bu gün onun
ağır misraların üstüylə gəlir arxayın
sözün  ləngərində Gülün qoxusu
özünüzə bir təsəlli verin
elə bilin dua verirsiniz
nakam bir yağmurla öz nəşinizə
siz eşqə dolun eşqə
eşq dolsun sizə

hesab eləyin bu axşam partlayan
eşq dolu bir ürək deylmiş

*   *   *
son da bir andı
amma o heç vaxt özü gəlmir
çünki o payız deyil qış deyil

sən özün qoşursan ona sarı
payız kimi qış kimi

mübarək məqam gəldiyində
bir alıcı quş kimi qoşursan
qovuşursan ona
vurulmuş kimi qəflətən
bir huşsuz  kimi

*   *   *

bu adam sonun nə olduğunu bilsə də
bütün ömrü boyu gora sarı gedirkən
bir yoldaşlıq yapmadı güllə
çünki ondan
nəfəsi kimi ayrılacağından qorxurdu sonda
çünki aşiq idi ona
amma özü demişkən sevdalıydı gora kimi
gor aldı gör ha kimi deyirdi
işıq ver iynə ucu
zülmətdi, gor hakimi, deyirdi

*   *   *

bu qərib an
mənim məkanımdır deyə
fəthini bildirmədən bir kimsəyə
bayrağını sancır könül
günün əyilmiş çağında ona

içim rahat
            tövbəm Gül  qoxulu

bax bu qərib andan
bax burdan başlamalıdı yurdu
burdan başlamalıdı ölkəsi
hər gün büdrəyincə Sözə çırpılan
Sözdən yapışan kəsin

-